QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 101 (5573) 26 **may** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İqtisadi uğurlarımız səhiyyənin inkişafına zəmin yaradır

*İlham Əliyev: “...Sağlam millət, sağlam cəmiyyət, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün çox vacibdir”*

Səh 2



4

Siyavuş Novruzov: “634 ailə sevinc içindədir”



7

Azərbaycan Xalq Cümhuriyyəti - 100



16

“Avro-2020”: Bakıda keçiriləcək oyunların vaxtı açıqlanıb



# İqtisadi uğurlarımız səhiyyənin inkişafına zəmin yaradır

*İlham Əliyev: "...Sağlam millət, sağlam cəmiyyət, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün çox vacibdir"*



Ölkə vətəndaşlarının sosial-iqtisadi müdafiəsinin gücləndirilməsi Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindəndir. İqtisadiyyatda həyata keçirilən köklü islahatlar makroiqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini daha da gücləndirmək üçün möhkəm zəmin yaradıb. Azərbaycanda aparılan siyasətin mərkəzində, məhz insan amili dayanır və ölkə rəhbərliyinin sosial siyasətinin fəlsəfəsi bütün vətəndaşların sosial şəraitinin yaxşılaşdırılmasına xidmət edir. İnsan həyatına və sağlamlığına zərbə vura biləcək halların qarşısı ciddi şəkildə alınır.

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət və imzaladıcı sərəncamlar bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təchiz olunması, müalicəsi və müayinəsi regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, uşaqların bütün növ tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində islahatların əsasını təşkil edir. Ölkəmizin hər yerində əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə-müalicəni və əməliyyatları həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılmışdır. Ölkəmizdə 600-dən çox xəstəxana, tibb obyekti əsaslı təmir olunaraq, yenidən bərpa edilməsi fikirlərimizi əsaslandırır.

Bir neçə ildir ki, Prezident İlham Əliyevin göstərişi ilə vətəndaşların kütləvi müayinədən keçmə kampaniyası aparılır. "Mən xatırlayıram, yeni istifadəyə verilmiş bütün tibb ocaqlarında vətəndaşlarla görüşlər zamanı onlara söyləyirdim ki, siz mütləq ildə bir dəfə müayinədən keçməlisiniz", - deyən dövlət başçısı artıq buna nail olduğunu vurğulayır: "... bölgələrdə, tibb mərkəzlərində yaşanan izdiham onu göstərir ki, vətəndaşlar bu imkanlardan böyük həvəslə istifadə edirlər. Bu, ilk növbədə, insanlara lazımdır, eyni zamanda, dövlətimizin inkişafı üçün də bunun çox böyük mənası var. Çünki sağlam millət, sağlam cəmiyyət, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün çox vacibdir". Bu il beş milyondan çox insan tibbi müayinədən keçdi. Bu da Azərbaycan dövlətinin vətəndaşlara olan münasibətinin və qayğısının daha bir təzahürüdür.

### AZƏRBAYCANDA ÇOXSAYLI SƏHİYYƏ MÜƏSSİSƏLƏRİNİN TİKİNTİSİ, ƏSASLI TƏMİRİ VƏ MÜASİR AVADANLIQLARLA TƏCHİZ EDİLMƏSİ DAVAM EDİR

Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin, möhkəm iradəsinin məntiqi nəticəsi olaraq, hətta bütün dünya üçün çətin olan son illərdə də, ölkəmizin inkişafı davam etdirilib. Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi həyata keçirilir. Sabirabad, Neftçala və digər rayonlarda mərkəzi xəstəxanalar istifadəyə verildi. Bütün bu və ya digər xəstəxanalarla yanaşı, Bakıda "Ürək Mərkəzi" istifadəyə verilib. Tibb müəssisəsi də ən son elmi-texniki yeniliklərə əsaslanan texnologiya və avadanlıqlarla təchiz edilib. Müasir standartlara cavab verən mərkəz, Cənab Prezidentin vurğuladığı kimi, dünya səviyyəsində ən yüksək qiymətə layiq olan bir mərkəzdir: "Həm bunun tikintisi, həm daxili dizaynı, əlbəttə ki, avadanlığı, müasir texnologiyalar, hər şey burada ən yüksək səviyyədə təşkil olunubdur". Cənab İlham Əliyev belə gözəl mərkəzlərin yaradılmasını ölkəmizin ümumi inkişafının göstəricisi olduğunu bildirib: "... əgər bu mərkəz dünyanın ən qabaqcıl tibb mərkəzlərindən fərqlənirsə, ancaq müsbət istiqamətdə fərqlənir. Çünki bu səviyyədən daha yuxarı səviyyəni təsəvvür etmək mümkün deyil".

### ÖLKƏMİZDƏ İNDİYƏDƏK 55 SÜMÜK İLİYİ KÖÇÜRÜLMƏSİ ƏMƏLİYYATI HƏYATA KEÇİRİLİB

Son illər talassemiyanın müalicəsi və diaqnostikası istiqamətində də mühüm tədbirlər görülüb. Prezident İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamı ilə talassemiyanın profilaktikasının gücləndirilməsi, əhali arasında maarifləndirmə işinin genişləndirilməsi, bütövlükdə, talassemiya xəstələrinə göstərilən tibbi köməyin təkmilləşdirilməsini nəzərdə tutan "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq olunub. Qeyd edək ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hələ 2005-ci il fevralın 8-də Azərbaycanda "Talassemiyasız həyat naminə" layihəsinin həyata keçirilməyə başlanmasını elan edib. Həmin proqram Azərbaycanda bu xəstəliklə mübarizədə dönüş anı oldu. Proqramın icrası çərçivəsində 2009-cu ilin mayında Bakıda Respublika Talassemiya Mərkəzi açıldı. Bu gün ölkəmizdə 3000-dən artıq talassemiya xəstəsi və 1 milyona yaxın bu xəstəliyin daşıyıcısı var. Onu da vurğulayaq ki, bu xəstəliyin qarşısının alınması məqsədi ilə Ailə Məcəlləsinə edilən dəyişikliklər və digər normativ aktlarla bağlı qəbul edilən Qanuna görə 2015-ci il iyunun 1-dən etibarən nikaha daxil olmaq istəyən vətəndaşlar tibbi müayinədən keçirlər. Bu da, öz növbəsində, talassemiya xəstəliyi ilə doğulan uşaqların sayının kəskin surətdə azalmasına imkan verir. 2014-cü ildə Talassemiya Mərkəzində, ölkə tarixində ilk dəfə olaraq, sümük iliyinin köçürülməsinə dair üç mürəkkəb əməliyyat aparılıb. Bütövlükdə, Talassemiya Mərkəzində indiyədək 55 sümük iliyinin köçürülməsi əməliyyatı həyata keçirilib.

### QEYRİ-İNFEKSİON XƏSTƏLİKLƏR ÜZRƏ MÜBARİZƏ DÖVLƏTİN PRİORİTET VƏZİFƏLƏRİNDƏN BİRİNƏ ÇEVRİLİB

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünya üzrə yoluxucu xəstəliklərdən ölənlərin sayının növbəti illərdə azalması gözlənildiyi halda, QİX-dən ölənlərin sayının 2030-cu ilədək artması proqnozlaşdırılır. Hesablamalara görə ürəyin işemik xəstəliyinin və beyin-damar xəstəliklərinin 80%-nə tütündən istifadə, spirtli içkilərdən sui-istifadə, qeyri-sağlam qidalanma və fiziki passivlik kimi davranış risk amilləri səbəb olur. Artıq çəki və piylənmə də, öz növbəsində, qan təzyiqi, qanda xolesterol və triqliserid səviyyələrinə mənfi metabolik təsir göstərə bilər. Strategiyada qeyd olunur ki, spirtli içkilərdən sui-istifadə nəticəsində il ərzində baş verən 3,3 milyon ölüm hadisəsinin yarısı, məhz QİX ilə bağlıdır. Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da xəstələnmə və ölüm hallarının əsas səbəbləri QİX-dir. Hazırda ölkə əhalisinin hər 100 min nəfərinə şəkərli diabetdən əziyyət çəkən 2053 nəfər düşür. QİX-in qarşısının alınması və bu xəstəliklərə nəzarət məsələlərinin hərtərəfli həlli səhiyyə, sosial, kənd təsərrüfatı, maliyyə, ticarət, nəqliyyat, şəhərsalma, təhsil və mədəniyyət kimi bütün müvafiq sahələrin birgə iştirak etdikləri vahid strategiyanın həyata keçirilməsini tələb edir. Bu tədbirlər əhalinin sağlamlığının və rifahının daha çox yüksəldilməsi, ictimai səhiyyənin gücləndirilməsi və əhali üçün əhatəli, ədalətli, davamlı və yüksək keyfiyyətli səhiyyə sistemlərinin təmin edilməsi məqsədi ilə üst-üstə düşür.

Əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş dövlət proqramlarının rolu, əlbətə ki, əhəmiyyətlidir. Belə ki, uşaqların icbari dispanserizasiyası Dövlət Proqramı çərçivəsində uşaqlar müayinələrə cəlb olunub. Qanın bədxassəli xəstəlikləri ilə xəstələnmənin və bu səbəbdən, ölüm hallarının yüksək göstəriciləri, bu xəstəliklərə, əsasən, əmək qabiliyyəti yaşında olan insanların və uşaqların düçar olması, müayinə və müalicə xərclərinin xəstələr üçün ağır maddi yük olmasını nəzərə alaraq, "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı" qəbul edilib.

Bu gün ölkəmizdə əvvəllər əlacı olmayan bir sıra xəstəliklər müalicə edilir, mürəkkəb əməliyyatlar, o cümlədən, qaraciyər transplantasiyası, süni oynaq və açıq ürək əməliyyatları aparılır. Təkcə ötən ildə 9 nəfərə qaraciyər, 81 nəfərə böyrək köçürülüb, 79 xəstə üzərində endoprotezləşmə əməliyyatı aparılıb. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, son illər ərzində Azərbaycanda səhiyyə sahəsində çox böyük işlər görülübdür: "Demək olar ki, biz səhiyyə sahəsinin maddi-texniki bazasını artıq yaratmışıq. İndi Azərbaycanda ən mürəkkəb əməliyyatlar aparılır və bu gün bizim səhiyyə sistemimizin həm maddi-texniki təminatı, həm də keyfiyyəti böyük dərəcədə artır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Xüsusilə, Dünya Səhiyyə Təşkilatı bizdə bu sahədə görülən işlərə yüksək qiymət vermişdir". Səhiyyədə əldə olunan uğurlar dünyada iqtisadi böhranın hökm sürdüyü bir dövrdə ölkəmizdə həyata keçirilib. Ölkəmizin sosial-iqtisadi rifahı dövlət başçısının yorulmaz səyi nəticəsində reallaşmış və səhiyyə sahəsindəki inkişafın təminində əhəmiyyətli rol oynamışdır.

Bu gün Azərbaycanda elə bir rayon, elə bir bölgə yoxdur ki, orada yeni xəstəxanalar, diaqnostika mərkəzləri açılmasın, müasir avadanlıqla təchiz olunmasın və insanların istifadəsinə verilməsin. Bütün bunlar Cənab Prezidentin səhiyyəyə qayğısının göstəricisidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev Gürcüstanın Prezidenti Giorgi Marqvelaşviliyə təbrik məktubu göndərib.

* * *

Prezident İlham Əliyev Elmira Axundovaya "Xalq yazıçısı" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.



# Əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı müşavirə keçirilib



Mayın 25-də Bakı Biznes Mərkəzində Azərbaycan Respublikasının Baş nazirinin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və Sərəncamın icrası ilə əlaqədar qarşıda duran vəzifələrə həsr olunan müşavirə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiya Komissiyasının rayon, şəhər icra hakimiyyəti yanında məşğulluğa kömək komitələrinin rəhbərlərinin birgə iştirakı ilə keçirilib.

Baş nazirin müavini Əli Əhmədov müşavirədə çıxış edərək son illər sürətlə inkişaf edən respublika iqtisadiyyatında əldə olunan uğurlardan söz açaraq, yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafı və əmək münasibətlərinin daha müasir formada tənzimlənməsi istiqamətində ölkə rəhbərliyinin atdığı addımların səmərəli nəticələr verdiyini vurğulayıb. O qeyd edib ki, Azərbaycan böyük inkişaf mərhələsi yaşayıb. 2003-cü ildən indiyədək ölkəmizdə 1,9 milyon iş yeri yaradılıb. Azərbaycanda məşğulluq dövlət siyasətinin ən mühüm istiqamətlərindən biridir. Son 15 ildə əhalinin sayı 1,5 milyon artıb. Ölkə əhalisi il ərzində 1,2 faiz artır. Biz hər il 100 mindən artıq iş yeri yaratmalıyıq. Ötən müddət ərzində xeyli iş yeri açılıb, insanların layiqli iş yerləri ilə təmin olunması üçün lazımi addımlar atılır. Ölkədə işsizliyin səviyyəsi təxminən 5 faiz təşkil edir. Respublikada 5 milyona yaxın əmək qabiliyyətli insan var. Əhalimizin 54 faizi kəndlərdə yaşayır. Müşavirədə müvafiq müzakirələr aparılıb.

## Rauf Əliyev: "Əfv sərəncamı Prezidentin növbəti humanist addımıdır"

"Son illər ərzində ölkə Prezidenti cəzasını çəkən məhbuslara qarşı humanizm göstərərək minlərlə insana azadlıq bəxş edib. Ötən gün imzalanan sərəncama əsasən də 634 nəfər əfv edilib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib. Bu cür sərəncamların artıq mühüm ümummilli dövlət bayramları ərəfəsində imzalanmasının ənənə halını aldığını deyən deputat söyləyib ki, bu növbəti əfv sərəncamı 28 May Respublika Günü ərəfəsində məhkumların ailələrinə, yaxınlarına, qohumlarına ikiqat sevinc bəxş edib: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevin Ulu Öndər siyasətinin mərhəmətlilik və humanizm ənənələrinə sadiq qalaraq, cəzadan azad olunacaq şəxslərin cəmiyyətimizə qovuşaraq müstəqil dövlətimizin inkişafı yolunda fəaliyyət göstərəcəklərini nəzərə alaraq imzaladığı növbəti əfv sərəncamı böyük humanist addımdır. Buna görə, Dövlət başçısına dərin minnətdarlıq hisslərimi bildirərək müstəqil Azərbaycan Respublikasının daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində apardığı yorulmaz fəaliyyətində uğurlar arzu edirəm".

# Oqtay Əsədov Gürcüstana gedir



Milli Məclisin Sədri Oqtay Əsədov Gürcüstan ilk Demokratik Respublikasının 100 illiyi ilə əlaqədar tədbirlərdə iştirak etmək üçün mayın 26-da bu ölkənin paytaxtı Tbilisi şəhərində səfərdə olacaq. Milli Məclisdən SİA-ya verilən xəbərə görə, tədbirin açılış mərasiminə Gürcüstanın Prezidenti, Baş naziri, parlamentin sədri, yubileyə dəvət olunmuş dövlət və hökumət başçıları qatılacaqlar. Gürcüstan parlamentində keçiriləcək "İnkişaf üçün əməkdaşlıq: gələcək 100 il üçün strategiya" mövzusunda dəyirmi masada Milli Məclisin Sədri Oqtay Əsədov çıxış edəcək. Səfər çərçivəsində parlament Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri gözlənilir.

# Bahar Muradova: "Heç kimə belə sonluq arzulamazdım"



"Mənsub olduğu xalqın vicdanlı nümayəndəsi və ölkəsinin vətəndaşı ola bilməyən, olmaq istəməyən birisi "dunya vətəndaşı" heç ola bilməz". SİA-nın verdiyi məlumata görə, bunu Milli Məclis sədrinin müavini Bahar Muradova öz facebook səhifəsində yazıb. Onun sözlərinə görə, yalnız milli və bəşəri idealları vəhdətdə götürməyi bacaranlar çərçivələri yara və proseslərin fövqünə qalxa bilərlər: "Həyat göstərdi ki, yalnız heç bir əndazəyə sığmayan hərəkətləri və sensasion açıqlamaları ilə "məşhurluq" qazanmaqla öz konyuktur maraqlarını doğma xalqının və insanlığın mənafeyinə xidmətdən üstün tutanlar mütləq şəkildə "bizim kinossenarist" Rüstəm İbrahimbəyovun aqibəti ilə üzləşəcəklər. İxtiyar yaşında öz günahı üzündən soydaşları arasında olub-qalan hörmət və nüfuzunu itirənlər başqalarının sevgisini qazana bilməzlər. Həm də ki, artıq buna vaxt qalmayıb. Daha heç kimə belə sonluq arzulamazdım".

# Qarabağ müharibəsi veteranı: "Rüstəm İbrahimbəyov bütün titullarından məhrum olunmalıdır"



Rüstəm İbrahimbəyovun ssenari müəllifi olduğu "Qafqaz üçlüyü" filmi Ağdam rayon ictimaiyyəti, ziyalılar, Qarabağ müharibəsi veteranları, şəhid ailələri tərəfindən tənqid və hiddətlə qarşılanıb.

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin rayon filialının sədri Baxşeyiş Hətəmli AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində deyib: "Rüstəm İbrahimbəyov "Qafqaz üçlüyü" filmində Azərbaycan xalqını vəhşi, qəddar, riyakar, mədəniyyətsiz obrazda, ermənilərı isə alicənab, sülhsevər kimi təqdim edib. Torpaqlarımızın erməni işğalçılarından müdafiəsində iştirak etmiş keçmiş döyüşçü kimi deyə bilərəm ki, müharibə zamanı Azərbaycan əsgərləri heç vaxt mülki şəxslərə zərər verməyib. Rüstəm İbrahimbəyovun alicənab adlandırdığı ermənilər isə xalqımıza qarşı tarixin ən qəddar faciələrini törədiblər. Qadın, qoca, uşaq demədən dinc sakinləri vəhşicəsinə qətlə yetirib, işgəncələrə məruz qoyublar. Xocalı, Qaradağlı, Malıbəyli və adını çəkmədiyim bir çox faciələr bunun sübutudur. Rüstəm İbrahimbəyovun mədəni və sülhsevər adlandırdığı ermənilər yüzlərlə şəhər və kəndlərimizi yandırıb, yerlə-yeksan edib, bir milyondan çox sakini öz ata-baba yurdundan didərgin salıblar. Budurmu ermənilərin alicənablığı, sülhsevərliyi?!"

Baxşeyiş Hətəmli qeyd edib ki, "Qafqaz üçlüyü" filmi Rüstəm İbrahimbəyovun azərbaycanlılara dərin nifrətinin və düşmən münasibətinin təzahürüdür, onun ermənipərəst simasını göstərir. "Mən bir Qarabağ müharibəsi iştirakçısı kimi bütün bunlara görə təəssüflənirəm və hiddətlənirəm. Rüstəm İbrahimbəyov kimi xainlərin, sapı özümüzdən olan baltaların azərbaycanlı adını daşımağa haqqı yoxdur. O, bütün titullarından məhrum olunmalıdır", - deyə B.Hətəmli bildirib.

# "Azərbaycanda kiçik və orta biznes evləri yaradılacaq"

Azərbaycanda kiçik və orta biznes evləri yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, biznes evləri dövlət orqanları ilə sahibkarlar arasında körpü rolunu oynayacaq. Yeni yaradılan biznes evləri biznes mühitində "ASAN xidmət" modeli kimi olacaq, sahibkarlar və dövlət orqanları üçün "bir pəncərə" sistemi kimi fəaliyyət göstərəcək.

# Siyavuş Novruzov: "634 ailə sevinc içindədir"



**- Siyavuş müəllim, may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü qeyd olunacaq. Sizin bu tarixi hadisə ilə bağlı fikirlərinizi almaq istərdik.**

- Şərqdə ilk Demokratik Cümhuriyyət quran xalqımız bir daha dünyaya sübut etdi ki, Azərbaycan xalqı dövlətə, dövlətçiliyə, dövlət ənənələrinə sadiq olan, çox yüksək mənəvi dəyərlərə, keyfiyyətlərə malik bir xalqdır. Azərbaycan hüquqi dövlətin qurulmasının əsas təməlini, demokratik təsisatları hələ əsrin əvvələrində həyata keçirib. Əgər qadına seçki hüququ ABŞ-da 1967-ci ildə verilirdisə Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ hələ 1918-ci ildə Demokratik Cümhuriyyət qurulanda verilmişdi. Şərqdə ilk parlamentli respublika qurulmuşdu. Ondan sonra isə Qərbi Avropa dövlətlərində parlament tipli dövlət sistemi qurulur. Hər bir sahəyə rəhbərlik edən insanın çox yüksək mənəvi keyfiyyətlərə, azərbaycançılığa, dövlətçiliyə, xalqına bağlılığı bir daha sübut edir ki, bu xalqın kökü çox qədimdir və böyük tarixə malikdir. Bu xalq həmişə öz dövlətçiliyini qoruyub və bundan sonra da qoruyacaq. Bu gün Azərbaycan regionda və dünyada ən aparıcı, sözünü deyən bir ölkəyə çevrilib. Təbii ki, Demokratik Cümhuriyyətin varisi kimi, onun qoyduğu, tövsiyə etdiyi ənənələr bu gün həyata keçirilir. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra demək olar ki, müstəqil Azərbaycan dövləti Demokratik Cümhuriyyətin taleyini yaşamadı. Elə bir məqam yetişmişdi ki, Azərbaycan parçalana bilərdi. Çünki separatizm baş qaldırmışdı və ərazilərimiz işğal olunurdu. Bir sözlə, Demokratik Cümhuriyyətdə baş verənlər təkrarlana bilərdi. Məhz Ümummilli Liderin səyi nəticəsində bunların qarşısı alındı və Demokratik Respublikanın qarşıya qoyduğu məqsədlər müstəqil Azərbaycan dövləti tərəfindən həyata keçirildi. O zamanlar ümumiyyətlə, Azərbaycan parlamentinin sədri müxtəlif konfranslarda iştirak edib Azərbaycana qayıda bilmirdi. Ulu Öndər Heydər Əliyev isə hakimiyyətə gələn kimi ilk növbədə BMT-nin daimi üzvlərinin hər birinə səfərlər etdi, bütün iri dövlətlərlə müqavilələr imzaladı, Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi üçün lazımi addımları atdı və daxildə sabitliyi əldə etdi. Bundan sonra isə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına sədrlik missiyasını həyata keçirdi. Demokratik Respublikanın arzusu da məhz bundan ibarət idi. Bu gün cənab Prezident İlham Əliyev tərəfindən bunlar həyata keçirilir.

**- Ötən gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhkum edilmiş 634 məhkumun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında Sərəncam imzaladı. Bu Sərəncamın əhəmiyyətini necə dəyərləndirirsiniz?**

- 634 nəfərin əfvi və onların bilavasitə cəzaçəkmə müəssisəsindən azad olunması çox böyük tarixi hadisədir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdən bu günə kimi 34 əfv sərəncamı olub. Onun bir qismi Ulu Öndər tərəfindən, digər qismi isə cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilib. Bundan başqa isə Milli Məclisdə 11 Amnistiya Aktı qəbul olunub. Bu Amnistiya Aktı da kifayət qədər insanlara şamil olunub. Ən son Amnistiya Aktı isə Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Bu Amnistiya Aktı 10 mindən artıq insana şamil olundu. Bu, bir daha Heydər Əliyev siyasətinin hümanistliyinin bariz nümunəsidir. Yəni ölüm hökmünün aradan qaldırılması, əfv sərəncamlarının, Amnistiya Aktlarının imzalanması ilə məhkumların yenidən həyata qayıdıb cəmiyyət üçün lazımi bir insana çevrilməsi şansının verilməsi məhz Heydər Əliyev siyasətinin aparıcı istiqamətlərindən biridir.

Biz bundan öncə də Prezidentin təşəbbüsü ilə Milli Məclisdə cəzaların yüngülləşdirilməsi ilə bağlı qanun qəbul etdik. Bunun əhatə dairəsi daha geniş idi. Çünki xeyli sayda insan dərhal cəzanın çəkilməmiş hissəsindən azad olundu və s. Bu Azərbaycanda 10 mindən artıq insana tətbiq olundu. Əgər xatırlayırsınızsa, ilk olaraq mən Milli Məclisdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Ümummilli Lider Heydər Əliyevin 95 illiyi ilə əlaqədar belə bir geniş əfv sərəncamının imzalanması ilə bağlı təşəbbüs irəli sürdüm. Mən həm Prezidentə, həm də Əfv Komissiyasının üzvlərinə öz təşəkkürümü bildirirəm ki, millət vəkilləri tərəfindən qaldırılan bu məsələr hərtərəfli şəkildə öz əksini tapdı. Əfv Komissiyası tərəfindən 1500 nəfərin işinə baxılıb. Bu, hər bir ailənin sevincidir. Təsəvvür edin ki, bu gün Azərbaycanda olan 634 ailə sevinc içindədir. Hesab edirəm ki, bundan gözəl bayram hədiyyəsi ola bilməz.

**- Siyavuş müəllim, əfv siyahısında olan 634 nəfər məhkumdan 12 nəfəri hüquq müdafiəçiləri tərəfindən "siyasi məhbus" kimi tanınıb. Bu barədə nə deyərdiniz?**

- Ümumiyyətlə, Azərbaycanda "siyasi məhbus" anlayışı yoxdur. Bu gün Azərbaycanda siyasi baxışlarına görə heç kim məsuliyyətə cəlb olunmayıb. Ola bilsin ki, kimlərsə ayrı-ayrı siyasi partiyaların üzvüdür, mətbuat orqanlarına rəhbərlik edir və yaxud da dini cərəyanların üzvüdür. Onlar konkret törətdiyi cinayət əməlinə görə məsuliyyətə cəlb olunublar. Bildiyiniz kimi, əfv Amnistiya Aktı deyil. Əfvdə müraciətə baxılırsa, Amnistiya Aktında isə maddə düşür. Əgər kimsə müraciət edib və onun məsələsinə baxılıbsa, o, artıq azadlıqdan məhrum olunub. İndi bəziləri iddia edirlər ki, onların müraciətlərinə baxılmamalıdır, çünki cinayət törətməyiblər. Təbii ki, bütün bunlar kökündən yanlışdır. Çünki o insanların hər birinin törətdiyi konkret cinayət əməli var və bu cinayət əməlinə görə də məsuliyyət daşıyırlar. Əgər azadlığa çıxıb cəmiyyətdə normal fəaliyyət göstərmək, cəmiyyətə qoşulmaq istəyirlərsə, cənab Prezident İlham Əliyevə müraciət etməlidirlər. Təbii ki, bu müraciət əsasında da onların işlərinə baxılmalıdır.

Bəzi adamların adlarının siyahıya salınmasına gəlincə isə deyə bilərəm ki, vaxtilə müəyyən hüquq-müdafiə təşkilatları bunu biznes mühitinə çevirmişdilər. Hansısa toyuq oğrusundan, ev yarandan, narkotik satandan pul alıb onun adını siyahıya salaraq Avropa Şurasına, başqa-başqa instansiyalara göndərirdilər ki, həmin insanlar "siyasi məhbus"durlar. Azərbaycanda olan hüquq-müdafiə təşkilatlarının bir çox bunun əleyhinə idilər. Onlar bu adamları tanımadıqlarını söyləyirdilər. Sözün həqiqi mənasında bu belədir. Məsələn, mən 30 ildir ki, siyasətdəyəm və o adamların 98 faizini tanımıram. Hansı partiya üzvü olmasından asılı olmayaraq kim cinayət törədibsə məsuliyyətə cəlb olunmalıdır. Bu gün elə YAP İdarə Heyətinin, Siyasi Şurasının üzvləri var ki, onlar məsuliyyətə cəlb olunublar. Partiya üzvü olmaq onun qanun qarşısında hansısa əməlini yüngülləşdirmir. Qanun qarşısında hər bir Azərbaycan vətəndaşı eynidir.

**- Bu yaxınlarda Avropa Şurası Parlament Assambleyası (AŞPA) Azərbaycana qarşı sanksiya tətbiq etdi. AŞPA-nın bu ikili standartlarına, ermənipərəst əməllərinə nə ad vermək olar?**

- AŞPA-nın bu addımı çox ədalətsizdir. Azərbaycanı müxtəlif cərəyanlara, cinahlara qoşmaq cəhdi baş tutmayacaq. Bu gün Azərbaycan dövləti müstəqil siyasət yeridir. Bunların hərəkətləri kampaniya xarakteri daşıyır. Məsələn, bir ölkəyə qarşı bir kampaniya yaradıb ona embarqolar tətbiq edirlər, bəyanatlar verirlər və s. Onların Azərbaycanın da bu proseslərə qoşulmasını istəyirlər. Amma ölkəmiz bu məsələlərin heç birinə qoşulmur. Bu gün Azərbaycan hər bir dövlətlə bərabər şəkildə öz müstəqil siyasətini aparır. Qoşulmamaq siyasəti Azərbaycanın ən düzgün siyasətidir. Bu baxımdan, onlar Azərbaycanı cəzalandırmaq üçün müxtəlif yollara əl atırlar. Orada söhbət tək Səməd Seyidovdan və ya digərindən getmir. Burada əsas söhbət Azərbaycana qarşı olan mövqedən gedir. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqın maraqlarını hər yerdə təmsil edir və bu yolda mübarizə aparır. Təsəvvür edin ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) seçkilərə gəlməmişdən öncə bəyanatları hazır idi. Seçim Azərbaycan xalqınındır. Bildiyiniz kimi, hakimiyyətin mənbəyi xalqdır. Azərbaycan xalqı sərbəst şəkildə gəldi öz seçimini etdi. ATƏT DTİHB kimi təşkilatlar da bunları öz gözləri ilə gördü. Amma təəssüflər olsun ki, Ermənistandakı seçkiləri demokratik adlandırıblar. Bu gün Ermənistana nəzər salsanız görərsiniz ki, hələ də orada aksiyalar davam edir. Bu təşkilatlar Azərbaycanda olan ictimai-siyasi sabitliyi qəbul etmirlər və görməməzlikdən gəlirlər.

**- Rüstəm İbrahimbəyov müəllifi olduğu "Qafqaz üçlüyü" filmi ilə bir daha Azərbaycana, xalqımıza qarşı öz çirkin xislətini ortaya qoydu. Buna sizin münasibətiniz?**

- Rüstəm İbrahimbəyovun indiyə qədər də Azərbaycan xalqını, türk etnosunu aşağılayan yazıları olub. Rusiyanın müxtəlif mətbuat orqanlarında, televiziyalarında bu səpkidə çıxışları olub. Bu şəxs ermənilərə olan məhəbbətini açıq şəkildə mütəmadi olaraq təqdim edib. Hesab edirəm ki, İbrahimbəyov bu xalqın nümayəndəsi deyil. Azərbaycan dövləti, xalqı tərəfindən ona verilən bütün titullar geri alınmalıdır. Qoy getsin Ermənistan, ona hansı titulları istəyir versinlər. Çünki onun bütün həyatının şüurlu fəaliyyəti ermənilərə daha çox xidmət etmək olub. Hətta deyərdim ki, Zori Balayan belə o qədər erməni xalqına xidmət etməyib. Ümumiyyətlə, hər adam Orxan Pamuk deyil. Elə bilirlər ki, bunlar da Orxan Pamuk kimi bu yolu gedib öz məqsədlərinə çatacaqlar. Əsrin əvvəllərindən başlamış indiyə qədər Dağlıq Qarabağda, Naxçıvanda, İrəvanda, Dərələyəzdə və s. azərbaycanlıların diri-diri basıdırılması, onların belinə qaynar samovarların bağlanılması, Qərbi Azərbaycanda uşaqların borulara doldurularaq ağızlarının qaynaq olunaraq yandırılması, Xocalı soyqırımı kimi hadisələri görən adam azərbaycanlıları qəddar, başkəsən, vəhşi kimi təqdim edir amma ermənilər qururlu, ləyaqətli, ziyalı, vətəninə, xalqına sədaqətli kimi göstərir. Bunu ancaq qanında erməni qanı axan adam edər. Onun ailəsindən başqa heç bir azərbaycanlı bu çəkilişdə iştirak etməyib. Bütün bunlar onu göstərir ki, "Milli Şura"nın nümayəndəsi bu şəxs idi. Bir zamanlar "Rüstəm" deyib meydanlara çıxanlar indi xalqın qarşısına çıxıb cavab versinlər. "Ağsaq atın kor nalbəndi" olar. Ona görə də Azərbaycan xalqı düzgün qərar verən və Demokratik Cümhuriyyət quran xalqdır. Xalq bunları tanıyır və ona görə bunların arxasınca getmir. O erməni çörəyi yeyənlərin fəxri sədri Rüstəm İbrahimbəyovdur. Hesab edirəm ki, bu insana erməni xalqının "milli qəhrəmanı" adını vermək lazımdır.

**- Son olaraq, Soçi şəhərində bir qrup separatçılarla görüş təşkil olundu. Bu görüş başlıca olaraq nəyə hesablanmışdı və məqsəd nə idi?**

- Bu gün Rusiya dövləti ilə Azərbaycan arasında, eləcə də hər iki ölkənin rəhbərləri arasında çox yaxşı münasibətlər mövcuddur. Amma bildiyiniz kimi Rusiyada böyük erməni diasporu var. İstər qeyri-hökumət təşkilatları, televiziya kanalları, istərsə də kinoverilişlərinin böyük əksəriyyətinə ermənilər rəhbərlik edir. Məsələn, Rusiyada olan ən böyük "Mosfilm"ə ermənilər rəhbərlik edir. Biz Rusiyada istənilən seriala baxanda orada erməni görə bilərik. Təbii ki, bunun da istənilən siyasətçilərə (parlamentə, hökumətə) təsir mexanizmi var. Həmin hökumət qüvvələrinin da o təsir altında olması məhz erməni diqtəsinin səyi nəticəsində həyata keçirilir. Biz Ermənistan istisna olmaqla hər bir qonşumuzla çox yaxşı münasibətdəyik. O baxımdan Rüstəm İbrahimbəyovun filmində də bizi gürcülərlə qızışdırmağa çalışırlar. Çünki o filmə tək siyasətçilər deyil, həm də ictimaiyyət baxmır. Həmin insanlar Azərbaycan haqqında başqa düşüncəyə malik olsunlar deyə bu cür təqdimatlar edilir. Bundan gənc nəsil nə tərbiyyə götürəcək.

# İngiltərə ilə Azərbaycan arasında elmi, mədəni və humanitar sahələrdə əlaqələr genişlənir

## *Professor Nərgiz Paşayeva: Oksford Universitetində imzalanan kontraktı elm, təhsil və mədəniyyət sahələrində Azərbaycanda "Əsrin kontraktı" adlandırmaq olar*

***Mayın 23-də İngiltərə ilə Azərbaycan arasında elmi, mədəni və humanitar sahələrdə mühüm tarixi hadisə baş verib. 2013-cü ildən Oksford Universitetində fəaliyyətə başlamış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Universitetin tərkibində daimi mövcudluğu haqqında kontrakt imzalanıb. AZƏRTAC xəbər verir ki, imzalanma mərasimi Universitetin protokoluna əsasən XV əsrdə yaradılmış bu ali təhsil ocağının Klarendon Kollecində keçirilib.***



Kontraktı Oksford Universiteti tərəfindən bu ali məktəbin vitse-kansleri, Amerika İncəsənət və Elmlər Akademiyasının, Amerika Filosoflar Cəmiyyətinin və Britaniya Akademiyasının üzvü, İrlandiya Kral Akademiyasının fəxri üzvü və Edinburq Kral Cəmiyyətinin üzvü professor Luiz Riçardson, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzi tərəfindən Mərkəzin Azərbaycan tərəfdən rəhbəri, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun (www.bfsac.org.uk) Qəyyumlar Şurasının sədri, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru professor Nərgiz Paşayeva imzalayıblar. Müqaviləyə əsasən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində yüksək statuslu elmi-akademik Mərkəz olaraq, Universitetin ayrılmaz bir hissəsi kimi, daimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, Oksford Universitetinin vitse-kansleri professor Luiz Riçardson 7 il ərzində Şotlandiyanın Sent-Andryus Universitetinin rektoru vəzifəsində çalışıb. 2016-cı il yanvarın 1-dən Oksford Universitetinin vitse-kansleri vəzifəsini tutur. İxtisasca alim-politoloq olan professor Riçardson İrlandiyanın Dublin şəhərindəki Triniti Kollecinin tarix üzrə bakalavr pilləsini bitirib, Kaliforniya ştatının Los-Anceles Universitetində siyasi elmlər üzrə magistr, sonra isə Harvard Universitetində magistr və doktorluq dərəcələri alıb. Professor Riçardsonun tədqiqat işlərində terror təhlükələrinə xüsusi diqqətin yetirilməsi və beynəlxalq təhlükəsizlik məsələləri araşdırılır. Professor Riçardsonun tədrisə və müəllimlik peşəsinə bağlılığı Harvard Universitetində işlədiyi müddətdə ona Levenson və Abramson mükafatlarını qazanmağa imkan verib. Onun tədqiqat işləri elmi dairələrdə geniş şəkildə tanınıb və professor Riçardson müharibələrin qarşısının alınması və bütün dünyada sülhün bərqərar olunması sahəsindəki xidmətlərinə görə Samner mükafatına, eləcə də Harvard Universitetinin İncəsənət və Elmlər Ali Məktəbinin 100 illik Medalına layiq görülüb. Professor Riçardson Şotlandiyanın Aberdin və Sent-Andryus universitetlərinin, Dublindəki Triniti Kollecinin və İrlandiyanın Belfast Kral Universitetinin, Rusiyanın Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun və Qərbi Hindistan Universitetinin fəxri doktorudur.

Professor Nərgiz Paşayevanın və Oksford Universitetinin vitse-kansleri Luiz Riçardsonun imzaladıqları müqavilə Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Oksford Universitetində yüksək statuslu elmi-akademik Mərkəzi olaraq, Universitetin ayrılmaz bir hissəsi kimi, bu qədim və dünyada tanınmış təhsil ocağında daimi fəaliyyət göstərməsinin rəsmiləşdirilməsi Mərkəzin Universitetindəki akademik uğurundan irəli gəlir. Nəticə olaraq 2013-cü ildən həyata keçirilməyə başlanan, Azərbaycanın və Qafqazın dil, mədəniyyət və tarixini öyrənmək üçün nəzərdə tutulan beşillik elmi-tədris və tədqiqat proqramına əsaslanır. Artıq Mərkəz Oksford Universitetinin daimi bir hissəsi kimi beynəlxalq elmi dairələr, müəssisələr və intellektual informasiya daşıyıcıları tərəfindən şərtsiz qəbul olunur.

İmzalanmış müqavilənin bəndlərindən birində Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına dahi Azərbaycan şairi Nizami Gəncəvinin adının verilməsi qeyd olunub. Onu da xatırladaq ki, bir qədər əvvəl - aprelin 23-də akademik Nərgiz Paşayevanın Oksford Universitetinin Bodleyn Kitabxanasının (https://www.bodleian.ox.ac.uk) direktoru, Amerika Filosoflar Cəmiyyətinin üzvü, Londonun Antik Kitab və Nadir Əşyaların Qorunması Cəmiyyətinin üzvü Riçard Ovendenlə keçirilən görüşü zamanı bu təklif qarşı tərəfdən çox müsbət qarşılanıb.

İmzalanan sənəd, həmçinin Bodleyn kitabxanalarında Yaxın Şərq və İslam kolleksiyaları bölməsinin kitabxanaçısına dəstək verəcək və bu vəzifəni icra edən şəxsə Azərbaycan dilini öz fəaliyyət sahəsinə əlavə etmək imkanı yaradacaq. Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin dəstəyi ilə Mərkəzin fəlsəfə doktoru proqramı üzrə hazırlıq keçən tədqiqatçıları, tələbələr və kənardan dəvət olunan araşdırmaçılar üçün xüsusi bir oxu zalı da yaradılacaq. Bundan əlavə, Britaniya Fondunun dəstəyi Bodleyn kitabxanalarına Azərbaycandan və Qafqazdan olan nadir və əhəmiyyətli materiallarla öz kitab fondlarını artırmağa imkan verəcəkdir. Şərqşünaslıq İnstitutu çərçivəsində Fondun dəstəyi sayəsində üç fəlsəfə doktoru (DPhil) təqaüdünün ayrılması imkanı yaranacaq, eləcə də tədqiqatçı alimlərə, müxtəlif tədbirlərin proqramlarına, həmçinin idarəetmə məsələlərinə dəstək verəcəkdir və Oksford Universitetinin Türk Dilləri Bölməsində Azərbaycanın rəsmi dili olan Azərbaycan dili ilə tanış olmaq və dili öyrənmək istəyən tələbələr üçün təlimatçı vəzifəsinin yaradılmasına imkan verəcək.

Beləliklə, imzalanan bu mühüm müqavilə Azərbaycan ilə Böyük Britaniya arasında qarşılıqlı münasibətlərin elmi, humanitar, mədəni və digər sahələrdə inkişafının yeni və vacib bir mərhələsidir və heç şübhəsiz ki, bu razılaşma Azərbaycan elmi və mədəniyyəti tarixinə qızıl hərflərlə yazılacaq. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan Elmi Mərkəzin dünyanın ən qədim və nüfuzlu təhsil ocaqlarından olan Oksford Universitetində daimi qaydada, Universitetin ayrılmaz hissəsi olaraq fəaliyyət göstərməsi Nizami Gəncəvi Elmi Mərkəzinin 5 il ərzində ədəbiyyat, tərcüməçilik, tarix, arxeologiya, tədris və mədəniyyət sahələrindəki ciddi və gərgin akademik əməyinin məntiqi nəticəsidir.

Oksford Universitetinin ən məşhur və nüfuzlu inzibati binalarından olan və ən yüksək qonaqların rəsmi qəbulları üçün nəzərdə tutulan Klarendon binasında keçirilən imzalanma mərasimindən əvvəl akademik Nərgiz Paşayeva və Oksford Universitetinin vitse-kansleri Luiz Riçardson arasında fikir mübadiləsi aparılıb. Akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə 2013-cü ildə Oksford Universitetində yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyəti geniş müzakirə olunub.

Bildirilib ki, Nizami Gəncəvi adına Elmi Mərkəz Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsidir və həmin Universitetin təkcə şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə Oksford Universitetində digər sahələrdə elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətlərinə malikdir. Həmçinin Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun 2017-ci ilin yanvarında Londonda 1852-ci ildə əsası qoyulmuş Viktoriya və Albert Muzeyində keçirilmiş təqdimat mərasimi də xatırlanıb. Fond Birləşmiş Krallıqda elm və mədəniyyət sahələrində Azərbaycan və Qafqazla bağlı aparılan bütün işlərin davamlı, uğurlu, perspektivli olmasını və beynəlxalq akademik səviyyəsini təmin etmək məqsədilə şəffaf və ədalətli dəstək üçün yaradılıb. Qeyd edilib ki, bu gün imzalanan müqavilənin reallaşmasına Britaniya Fondu da öz dəstəyini verib.

Tədbirdə çıxış edən Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının sədri, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın həqiqi üzvü, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri professor Nərgiz Paşayeva tədbir iştirakçılarını salamlayaraq bu cür tanınmış və nüfuzlu alimlərin bugünkü imzalanma mərasiminə dəstəyini və marağını məmnunluqla qarşıladığını qeyd edib. Professor Nərgiz Paşayeva Oksford Universiteti nəzdində 2013-cü ildən fəaliyyət göstərən Nizami Gəncəvi Mərkəzinin, Azərbaycanın tarixi, mədəni, mənəvi irsinin öyrənilməsi və təbliğində aparılan işlərin və ölkəmiz üçün vacib olan bu Mərkəzin elmi-strateji məqsədlərinin əhəmiyyətini vurğulayaraq deyib: "Beş il əvvəl Oksford Universitetinə gələndə buradakı fantastik atmosfer və insanlar bizi heyran etdi. Azərbaycanı və Qafqazı öyrənən, Nizaminin adını daşıyan yeni elmi mərkəzin yaradılması ideyası yarandı. Mərkəzin həmin andan Oksford Universitetində davamlı, daimi mövcudluğu məqsəd olaraq qarşıya qoyuldu. Azərbaycan elmi və mədəniyyəti Qafqazın bir hissəsi kimi Oksford Universitetində tədqiqat obyektinə çevrilmək imkanı aldı. Müxtəlif, dəyişik elmi yanaşmalara, müasir nəzəri metodologiyalara, istedadlı insanlara və dialoqa yeni yol açıldı. Bu gün imzalanan kontraktı, belə böyük hadisəni elm, təhsil və mədəniyyət sahələrində Azərbaycanda "Əsrin kontraktı" adlandırmaq olar. Bu fərəhli gün Azərbaycan tarixinin ən parlaq səhifələrindən olan AXC-nin 100 illik yubileyinə və müsəlman Şərqində birinci Demokratik Respublika yaradan parlaq insanların əziz xatirəsinə ithaf olunur".

Qeyd edək ki, postsovet müsəlman respublikaları arasında Azərbaycan birinci olaraq Oksford Universitetində öz daimi funksional mərkəzini yaratdı və təsdiq etdi. Bəşər tarixinin təcrübəsi göstərir ki, böyük elm aləminə daxil olmadan sanballı və fundamental elmi nailiyyətlər əldə etmək mümkün deyil.

Ardı Səh. 6

# İngiltərə ilə Azərbaycan arasında elmi, mədəni və humanitar sahələrdə əlaqələr genişlənir

## *Professor Nərgiz Paşayeva: Oksford Universitetində imzalanan kontraktı elm, təhsil və mədəniyyət sahələrində Azərbaycanda "Əsrin kontraktı" adlandırmaq olar*

Əvvəli-Səh-5



Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun iranşünaslıq üzrə aparıcı professoru, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Britaniya tərəfdən rəhbəri Edmund Hersiq deyib: "Oksfordda Qafqaz və Orta Asiya ilə bağlı tədqiqatların uzun bir tarixi var və Bodleyn Kitabxanasında bölgədən gətirilən çoxlu sayda kitablar və əlyazmalar toplanıb. Lakin bu günə qədər bu bölgənin öyrənilməsi ilə məşğul olan bir mərkəz olmayıb və bu ərazidə yerləşən və daha məşhur olan böyük imperiyalar bu ölkələri hər zaman öz kölgələrində saxlamağa meyilli olublar. Bu imzalanma Oksford Universitetinə, ilk növbədə, Azərbaycanı, Qafqazı və Mərkəzi Asiyanı davamlı şəkildə tədqiqat obyektinə çevirməyə imkan verəcək. Belə ki, Mərkəz burada işləmək üçün ən yaxşı tədqiqatçı tələbələri və araşdırmaçıları cəlb edəcəkdir. Bütün bunlar gələcəkdə bu sahənin yalnız Şərqşünaslıq İnstitutu deyil, həm də Universitetin digər qurumlarında da inkişaf etdirilməsinin təməlini qoyacaq".

Tədbirdə fəxri qonaqlar arasında bir-biri ilə ünsiyyət yaradan görkəmli elm və mədəniyyət nümayəndələri, siyasi və ictimai xadimlər var idi. Onlar Azərbaycanı və Qafqazı öyrənən Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin layihələrinin həyata keçirilməsi ilə bağlı müzakirələr aparırdılar. Səmimi ab-hava tədbirin xüsusi əhəmiyyətindən xəbər verirdi. Vurğulanırdı ki, Oksford Universitetində indiyə qədər Azərbaycanla bağlı bu məzmunda və bu səviyyədə tədbir keçirilməyib.

İmzalanma günündə Birləşmiş Krallığın elmi-akademik dairələrinin nüfuzlu üzvləri, Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru, Amerika Filosoflar Cəmiyyətinin üzvü, Londonun Antik Kitab və Nadir Əşyaların Qorunması Cəmiyyətinin üzvü Riçard Ovenden, Oksford Universitetinin Şərqşünaslıq fakültəsinin professoru, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Britaniya tərəfdən rəhbəri Edmund Hersiq (http://www.orinst.ox.ac.uk/research/nizami-ganjavi/people), qədim İslam tarixi üzrə dünyanın tanınmış alimlərindən olan, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının üzvü professor Robert Hoyland, Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun rəhbəri professor Mark Smit, Britaniya Lordlar Palatasının üzvü, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının üzvü Lord Malcolm Bryus, Oksford Universitetinin Vadham Kollecinin İdarə Heyətinin rəhbəri, Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord Ken Makdonald, Oksford Universitetinin inkişaf departamentinin direktor vəzifəsini icra edən, professor Entoni Qrin, Oksford Universitetinin professoru, şərqşünas alim Culiya Bray, Bodleyn Kitabxanasının Şərq bölməsinin rəhbəri doktor Gilliyan Evison, Oksford Universitetinin humanitar elmlər departamentinin rəhbəri Karen O'Breyn, həmçinin Azərbaycandan olan fəxri qonaqlar - Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik Akif Əlizadə, AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin dekanı, professor Vasim Məmmədəliyev, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru və AMEA humanitar elmlər bölməsinin akademik katibi professor Teymur Kərimli, Bakı Dövlət Universitetinin ümumi dilçilik kafedrasının müdiri akademik Nizami Cəfərov iştirak ediblər.

İmzalanma mərasiminin sonunda Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri professor Nərgiz Paşayeva Oksford Universitetinin vitse-kansleri professor Luiz Riçardsona xatirə olaraq Azərbaycanın böyük xeyriyyəçisi və mesenat Hacı Zeynalabdin Tağıyev haqqında kitabı və Bakının keçmiş Nikolayev küçəsindəki Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbinin binasında (hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918-ci il dekabrın 7-də keçirilmiş ilk iclası təsvir olunan şəkli hədiyyə etdi. Professor Luiz Riçardson da öz növbəsində professor Nərgiz Paşayevaya Oksford Universitetini əks etdirən rəsm əsərini hədiyyə verdi.

Onu da qeyd edək ki, rəsmi hissədən əvvəl professor N.Paşayeva Oksford Universitetinin alimləri və digər qonaqlarla birgə Bodleyn Kitabxanasının qədim hissələrindən olan Horton zalında və Qərb Kitabxanasında oldular, Bodleyndə saxlanan ən qədim əlyazmaların kolleksiyası və onların qorunması mərkəzinə baş çəkdilər. Olduqca maraqlı keçən bu gəzintidə qonaqları Bodleyn Kitabxanasının inkişaf departamentinin rəhbəri Eleyn Gallagher müşayiət edib.

Gəzinti başa çatdıqdan sonra tədbir iştirakçıları Vadham Kollecinin "Trapp rum" adlanan zalında rəsmi nahara dəvət olundular.

Oksford Universitetinin 1610-cu ildə Doroti Vadham tərəfindən mərhum həyat yoldaşı Nikolas Vadhamın vəsiyyətinə uyğun olaraq yaratdığı və Oksfordun mərkəzi hissəsində yerləşən məşhur Vadham Kollecində olduqca səmimi keçən rəsmi nahardan sonra, qeyd olunduğu kimi, görüş Oksford Universitetinin Klarendon adlanan binasında rəsmi imzalanma mərasimi ilə davam etdi. Klarendon binası Nikolas Hoksmurun dizaynı əsasında inşa edilib və birinci dərəcəli tikinti binası hesab olunur. 2018-ci il mayın 23-də Oksford Universitetində imzalanan bu kontraktı, sözün həqiqi mənasında, böyük mədəni-tarixi və humanitar hadisə kimi "Əsrin kontraktı" adlandırmaq olar. Bu hadisə Azərbaycan akademik elmi fikrinin və tarixi irsinin dünya elminə inteqrasiyasına sanballı töhfə verəcəyinə, gələcəkdə yeni yollar və imkanlar açacağına böyük inam yaradır.

## Elmar Məmmədyarov: "Ermənilərin bu təklifi sülh prosesini öldürməyə yönəlib"



"Ermənistan rəhbərliyinin Dağlıq Qarabağın erməni separatçılarının danışıqlarda tərəf kimi iştirak etməsi ilə bağlı istəyi sülh prosesini öldürməyə yönəlib". SİA-nın verdiyi məlumata görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov jurnalistlərə açıqlamasında bildirib.

Nazirin sözlərinə görə, bu məsələ ATƏT-in Minsk qrupunun həmsədrləri ilə Parisdə keçirdiyi görüşü zamanı müzakirə olunub: "Mən həmsədrlərlə görüşdə birmənalı şəkildə qeyd etdim ki, ermənilərin belə bir istəyi sülh prosesinə zərbə vurmaq məqsədi daşıyır. O ki qaldı bundan sonrakı danışıqlara, həmsədrlər Ermənistana səfər etməlidirlər ki, yeni hakimiyyətlə tanış olsunlar. Bundan sonra danışıqlarla bağlı yeni mərhələ müzakirə oluna bilər".

## Dünya Xəbər Agentliklərinin 6-cı Konqresi gələn il iyunun 13-14-də keçiriləcək

Mayın 24-də Sankt-Peterburqda 22-ci Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində Dünya Xəbər Agentlikləri Konqresi Şurasının (NACO) iclası keçirilib. Konqresin hazırkı prezidenti və Şuranın daimi üzvü olan AZƏRTAC iclasın işində iştirak edib.

Xatırladaq ki, Dünya Xəbər Agentlikləri Konqresinin nizamnaməsinə görə bu təşkilata səlahiyyət verən bütün agentliklər Konqresin işçi strukturu olan NACO-nun daimi üzvləridir. İdarəedici orqan olan Şura üç ildən bir keçirilən forumlar arasındakı müddətdə fəaliyyət göstərir. Şuranın Sankt-Peterburqda keçirilən iclasının əsas mövzusu 2019-cu ilin yayında Sofiyada keçiriləcək 6-cı konqresə hazırlıq məsələləri olub. 6-cı konqresin gələn il iyunun 13-14-də keçirilməsi qərara alınıb. Konqresin plenar iclasında və "dəyirmi masa"larda müzakirə olunacaq mövzuların əhatə dairəsi müəyyənləşdirilib. Şuranın növbəti iclasları bu il noyabrın 16-da Londonda, sonra isə 2019-cu il martın 7-də Sofiyada keçiriləcək. Konqresin gələcək prezidenti, Bolqarıstanın BTA teleqraf agentliyinin rəhbəri Maksim Minçev başçılıq etdiyi agentlik tərəfindən növbəti konqresin keçirilməsinə hazırlığın gedişi barədə məlumat verib. AZƏRTAC-ın əməkdaşı Vüqar Seyidov müşavirə iştirakçılarına bildirib ki, bu il oktyabr ayında Azərbaycan paytaxtında növbəti Bakı Humanitar Forumunun keçirilməsi planlaşdırılır.

# Azərbaycan Xalq Cümhuriyyəti - 100

## Şərqin ilk demokratik respublikası

***28 May Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı tarixi gündür. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. 71 il sovet imperiyasınının buxovlarında yaşayan Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hər il ölkəmizdə 28 May Respublika Günü böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir.***



Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramdır. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların və peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi.

AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər bağlamışdı.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi.

Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq, bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Azərbaycan Xalq Cümhuriyyəti, xüsusən, təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri tədris müəssisələrinin milliləşdirilməsi oldu. 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu.

Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

AXC dövründə Azərbaycanda ilk muzey "İstiqlal" Muzeyi təşkil olunmuşdur. Eyni zamanda, Bakıda Etnoqrafiya Muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır. Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.

İstiqlal dövrü milli teatr sənətinin, poeziyanın, dramaturgiyanın, ümumiyyətlə, incəsənətin inkişafında çox mühüm və maraqlı bir dövrdür. 1918-ci ilin oktyabrında Bakıda Hacıbəyli qardaşları tərəfindən teatr truppası yaradılmışdır. Azərbaycan hökuməti Türk Teatr truppasını öz himayəsinə almışdı. Ümumiyyətlə, istiqlal dövrü teatrın inkişafında əsaslı keyfiyyət dəyişiklikləri və dövlətin teatr sənətinə fəal yardımı teatrın cəmiyyətin həyatında rolunun artması ilə əlamətdardır.

XX əsrin 90-cı illərində, Azərbaycan da daxil olmaqla, bütün İttifaq respublikalarında başlanan və Sovet İttifaqının dağılması ilə nəticələnən milli azadlıq hərəkatı ilə Azərbaycan ikinci dəfə öz müstəqilliyinə qovuşdu. 71 il sonra, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycanın müstəqilliyi yenə təhlükə qarşısında idi. Yalnız Ümummilli Liderin xalqın təkidli istəyinə səs verərək, hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın Yeni Konstitusiyası qəbul olundu. Azad və demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı, hüquq-mühafizə və məhkəmə sistemi yenidən quruldu.

Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoydu. Ümummilli Lider Heydər Əliyev müstəqilliyi ən böyük sərvət və ən böyük dəyər kimi qiymətləndirirdi: "Müstəqilliyi əldə etmək onu qoruyub-saxlamaqdan və möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq. ...Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqının maraqlarının qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir".

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail oldu. Azərbaycan Prezidenti İlham Əliyev milli mənafelərlə bağlı problemlərin həllində həssas və fəal yanaşma nümayiş etdirdi. Azərbaycan dünyanın maraq dairəsinə əbədi daxil oldu və geosiyasi platformada ölkəmiz güc və nüfuz sahibinə çevrildi.

Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər gürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələri icra edir, heç bir regional layihə Azərbaycanın iştirakı olmadan reallaşmır, ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Beləliklə, Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə olunması, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunur. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması, tarixi irsə bağlılıq kimi müqəddəs prinsip dayanır.

Xalqımız 28 May Respublika Gününü hər il təntənə ilə qeyd edir. Ölkə başçısı, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev 16 may 2017-ci il tarixdə imzaladığı Sərəncamla Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsini qərara almışdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi sevindirir və qürurlandırır.

Azərbaycan həm də Olimpiya Hərəkatının geniş vüsət aldığı idman ölkəsidir. Təqdirəlayiq haldır ki, respublikamızın davamlı inkişafı idmanı da əhatə edib və ötən illər ərzində ölkəmizin idman infrastrukturu tamamilə yenidən qurulub. Bunun nəticəsi olaraq, son illərdə ölkəmizdə idmanın əksər növləri üzrə dünya və Avropa çempionatları, "Bakı-2015" I Avropa Oyunları keçirilib. 2017-ci il may ayının 12-22 tarixlərində isə Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "Bakı-2017" IV İslam Həmrəyliyi Oynlarına yüksək səviyyədə ev sahibliyi edərək tarix yazdı. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. "Bakı-2017"-də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu.

Böyük çətinliklə əldə olunan azadlığı və müstəqilliyi qoruyub-saxlamaqda hər bir Azərbaycan vətəndaşı məsuliyyətlidir. Azərbaycan dövlətinin bayrağı daim dalğalanmalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bizim bayrağımız qürur mənbəyimizdir, canımızdır, ürəyimizdir: "Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır... Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan bayrağına! Yaşasın Azərbaycan!" Azərbaycanın müstəqilliyi əbədidir və üçrəngli bayrağımız bir daha enməyəcək, daim uca zirvələrdə dalğalanacaqdır. 28 May Azərbaycan Respublikasının müstəqillik arzularının gerçəkləşdiyi gün olaraq hər zaman xatırlanır və dövlət bayramı kimi qeyd olunur.

***Zümrüd BAYRAMOVA***

# Ermənidən artıq ermənilik, yaxud Rüstəm İbrahimbəyovun Azərbaycan xalqına nifrətinin səbəbləri nədir?






Fəaliyyəti və fikirləri ilə daim anti-Azərbaycan mövqeyində duran, erməni sevgisini hər addımbaşı sübut edən Rüstəm İbrahimbəyov bu günlərdə yenidən gündəmə gəlməyi bacarıb. Əlbəttə ki, bu dəfə də Azərbaycan xalqını, dövlətini, insanların milli-mənəvi dəyərlərini, mentalitetini təhqir etməklə, torpaqlarımızı işğal etmiş, 2 milyondan artıq soydaşımızı soyqırımına məruz qoymuş, 1 milyondan çox vətəndaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salmış ermənilərin timsalında bəşəriyyətin məzlumları obrazını yaradan "rejissor" Rüstəm İbrahimbəyov öz ampluasında olub. Belə ki, 2015-ci ildə çəkilmiş və ssenari müəllifi Rüstəm İbrahimbəyov olan "Qafqaz üçlüyü" filmində Azərbaycan xalqı vəhşi, qəddar, riyakar, mədəniyyətsiz, milli kökləri olmayan obrazda, ermənilər isə alicənab, sülhsevər, "vəhşi türkün qurbanı" kimi təqdim olunublar.

## Azərbaycanlıları qorxaq, erməniləri isə mərd obrazda təqdim etmək öz xalqına qarşı açıq düşmənçilikdir

Filmin başlanğıcında tamaşaçılara azərbaycanlı uşağın qorxaq obrazı fonunda mərd, güclü, təmənnasız və genişürəkli erməni uşağının obrazı təqdim olunur. Azərbaycanda yaşayan erməni əsilli bir şəxsin kənd uşaqları tərəfindən quyuya atılması, daşlanması epizodunun əsas məqsədi "vəhşi azərbaycanlıların" "dinc ermənilərə" qarşı qəddarlığını göstərməkdir. Filmdə erməninin "cəzalandırılması" aksiyasının sakinlər tərəfindən necə coşqu ilə qarşılandığı və əslində, bu qəddarlığın guya xalqımızın mentalitetində oturuşduğunu beynəlxalq auditoriyaya təqdim etmək niyyəti aydın şəkildə özünü büruzə verir. Hətta öldürülən oğlunun xəbərini almaq niyyətilə Azərbaycana gələn qoca erməninin sonda hava limanında Sərhəd Xidmətinin əməkdaşı tərəfindən necə qəddarcasına döyüldüyünün təsviri belə bu filmin əsl məqsədlərini ortaya qoyur.

Xatırladaq ki, hələ 2008-ci ildə Rusiya mətbuatına verdiyi açıqlamada Azərbaycan xalqını aşağılayan, sanki bundan zövq alan və özünü "elita" sayaraq millətinə yuxarıdan aşağı baxmağa cəhd edən Rüstəm İbrahimbəyov deyirdi ki, Bakıdan ermənilərin çıxıb getməsindən sonra "buradakı mühit onu boğur". R.İbrahimbəyov açıq şəkildə Azərbaycanın bölgələrindən paytaxta gələn vətəndaşlarımızı təhqir edir, onlara yuxarıdan aşağı münasibət sərgiləyirdi. İndi bəlli olur ki, ötən 10 il ərzində İbrahimbəyovun erməni sevdalısı olan beyni nəinki bu cür naqolay fikirlərdən arıtlanmayıb, əksinə, onun içindəki erməni sevgisi və paralel olaraq Azərbaycan xalqına qarşı olan nifrəti daha da artıb. Bu film də, məhz R.İbrahimbəyovun əsl simasının üstünə işıq salır. Bütün bunlar isə bir daha sübut edir ki, Azərbaycanlıları qorxaq, erməniləri isə mərd obrazda təqdim etmək öz xalqına qarşı açıq düşmənçilikdir.

## Xəyanətkar Əkrəm Naibovdan sonra Rüstəm İbrahimbəyovun dünya erməniləri üçün növbəti hədiyyəsidir "Qafqaz üçlüyü" filmi

Birmənalı şəkildə vurğulanmalıdır ki, torpaqlarının 20 faizi işğal altında olan, həmin ərazilərdə bütün milli-mədəni irsi dağıdılmış, uşaqlarının, qadınlarının, qocalarının qəddarcasına, işgəncə ilə qətlə yetirildiyi bir xalqın nümayəndəsinin bu "etirafları" milli xəyanətin, insan mənəviyyatının deqradasiyasının və alçalmasının, öz milli köklərinə, xalqına nifrətin bariz nümunəsidir. Bu "film" sadə vətəndaşından tutmuş yüksək vəzifəli məmuruna kimi bütün azərbaycanlıları yaramaz kimi təqdim edir. Sanki hazırda 30 min erməninin yaşadığı bir ölkədə hər kəs gecə-gündüz bu millətdən olan nümayəndələri tapıb cəzalandırmaq arzusu ilə yaşayır. "Qəddar" Bakının fonunda isə bütün məsələlərin həll olunduğu, xoşbəxtlik adasını xatırladan, cənnət kimi təsvir olunan Moskva ucaldılır. Azərbaycanda döyülən, söyülən, əzilən, işgəncələrə məruz qalan ermənilər bu şəhərə sığınıb əsl xoşbəxt həyat əldə edirlər. Rüstəm İbrahimbəyov Bakı ilə Moskvanın kontrastı fonunda öz həyatını təsvir edir: onu inkar edən və lənətləyən Bakı ilə müqayisədə alicənab Moskvanın açdığı imkanları vəsf edir.

Təsadüfi deyil ki, filmdə azərbaycanlı adına yalnız İbrahimbəyovun qohumları və bir də gürcü aktyorlar yer alırlar. Görünür, heç Ermənidən artıq ermənilik, yaxud Rüstəm İbrahimbəyovun bir azərbaycanlı belə yaramaz, düşmən layihədə yer almaq istəməyib.

R.İbrahimbəyov ciddi-cəhdlə göstərməyə çalışır ki, Dağlıq Qarabağ münaqişəsinin kökündə ermənilərin türklərə və azərbaycanlılara qarşı nifrəti, onların işğalçılıq iddiası deyil, məhz azərbaycanlıların ermənilərə qarşı dərin nifrəti amili durur. Bu isə R.İbrahimbəyovun zaman-zaman dilə gətirdiyi xəyanətkar fikirləridir ki, artıq film olaraq ortaya çıxır. Bu film, həm də Rüstəm İbrahimbəyovun öz xalqının "vəhşi" obrazını yaratmaqla aşağılaması fonunda şəxsini böyük "humanist" kimi qələmə vermək cəhdi, İbrahimbəyovun azərbaycanlılara və Azərbaycan adına olan hər şeyə dərin nifrətinin və düşmən münasibətinin təzahürüdür. Bir sözlə, xəyanətkar Əkrəm Naibovun "Daş yuxular" cızmaqarasından sonra Rüstəm İbrahimbəyovun öz xalqına qarşı bu yaramaz, xəyanətkar və şərəfsiz davranışı bütün dünyada azərbaycanlıları ən neqativ fonda təqdim etmək üçün yeni əsas yaratmağa planlaşdırılıb. Azərbaycanlı tərəfindən "etiraf" olunan bu "həqiqətlər" dünya erməniliyi üçün əsl hədiyyədir.

## Bazar təfəkkürlü R.İbrahimbəyov Şəhidlər Xiyabanının ətrafında əyləncə mərkəzi inşa etdirmək istəyirdi

Rüstəm İbrahimbəyov Azərbaycan xalqına və dövlətinə nifrətini təkcə Rusiya mətbuatına müsahibələri və çəkdiyi təxribat xarakterli filmlərlə deyil, insanlarımızın milli mənəvi dəyərlərinə qarşı terror törətməklə də nümayiş etdirir. Hər kəs bilməlidir ki, R.İbrahimbəyov bir müddət idi ki, paytaxt Bakının mərkəzində "Kino evi" açmaq niyyətində idi. Sonradan bəlli olmuşdu ki, Şəhidlər Xiyabanının ətrafındakı meşə massivini əlinə keçirərək orada özünün biznes marağına xidmət göstərəcək kompleks tikmək niyyətində olan İbrahimbəyov, sən demə, kino adından sadəcə istifadə edirmiş. Hətta Rusiyada bəzi dairələrlə, xüsusilə də erməni lobbisinin nümayəndələri ilə bu istiqamətdə danışıqlar aparan, özünə "sponsorlar" tapan, həmin ərazidə biznes və restoran şəbəkəsi yaratmağa çalışan İbrahimbəyovun növbəti dəfə Azərbaycanın milli-mənəvi dəyərlərini heçə saydığını nümayiş etdirdi. Onun üçün ən əsası özünün biznes marağının təminidir. Onu Şəhidlər Xiyabanı, milli dəyər maraqlandırmırdı. Həmin ərazini ələ keçirə bilməyən R.İbrahimbəyov elə buna görədir ki, hər fürsətdə Azərbaycan xalqına və dövlətinə olan kinini qusur...

## Rüstəm İbrahimbəyovun tükənməz erməni sevgisi, yaxud o, Daşnaksütyun partiyasının fəallarındandır

Rüstəm İbrahimbəyovun tükənməz erməni sevgisini hər fürsətdə erməniləri başa keçirib tədbirlərdə ön sıralarda əyləşdirmək də isbatlayırdı. Elə bu səbəbdəndir ki, Kinematoqrafçılar İttifaqının tədbirlərinə dəvətlilər müəyyənləşdirilərkən Rüstəm İbrahimbəyovun ağlına ilk olaraq ermənilər gəlirmiş. Belə ki, Bakıda keçirilmiş "Şərq-Qərb" festivalının maliyyəsi hesabına R.İbrahimbəyovun daşnak partiyasının üzvü Roman Balayan və bakılı, Sovet dövründə Azərbaycanda mövcud olan nazirliklərin birində çalışan Rudik Avanesovu dəvət etməsi də bunun bariz örnəyi idi. Yeri gəlmişkən onu da qeyd edək ki, Roman Qurgenoviç Balayan (1941-ci il 15 aprel Azərbaycan SSR, Dağlıq Qarabağ Muxtar Vilayəti, Mardakert rayonu, Nerkin Orataq kəndində anadan olub) - Sovet Ukrayna kinorejissoru, ssenarist və prodüser, SSRİ Dövlət mükafatı laureatı (1987), Ukraynanın Xalq artistidir.

O, Rüstəm İbrahimbəyovun ən yaxın silahdaşlarından biridir. Məlumata görə, R.Balayan Daşnaksütyun partiyasının fəallarındandır. Lakin Balayan R.İbrahimbəyovla möhkəm dostluq əlaqələri olan yeganə erməni deyil. Bu siyahı kifayət qədər genişdir. Bununla yanaşı, Rüstəm İbrahimbəyovun Azərbaycan torpaqlarında yetişdirilən üzümlərdən hazırlanmış "İbrus" şərablarını da tələsik erməni dostlarına aparması onun sonsuz erməni məhəbbətindən xəbər verirdi...

## "Ziyalı" Rüstəm İbrahimbəyovun maxinasiyaları bu gün də diqqət mərkəzindədir

Rüstəm İbrahimbəyovun erməni sevgisi onun Azərbaycan xalqına və dövlətinə olan nifrətini hər zaman ön planda tutub. Elə bu səbəbdəndir ki, Rüstəm İbrahimbəyov Azərbaycan kinomatoqrafiyasına zərbə vurmaq, mövcud infrastrukturu məhv etmək və satıb maliyyəsinin arxasınca keçmək üçün çox ciddi maxinasiyalara, fırıldaqlara da əl atıb.

Belə ki, Kinematoqrafçılar İttifaqının balansında olan çoxlu sayda avtomobil sənədlərdə qeydiyyatda qalsa da, əslində R.İbrahimbəyov tərəfindən satılıb. İttifaqın "çayka" qonaq maşını evlənən cütlükləri şadlıq saraylarına daşımaq üçün istifadə olunurdu, sənədlərdə isə guya Kinematoqrafçılar İttifaqının qonaqlarına xidmət edirmiş kimi göstərilirdi. Eyni zamanda, Kinematoqrafçılar İttifaqı Konfederasiyasının yardım olaraq ayırdığı 83 min dollar vəsait Kinematoqrafçılar İttifaqının xəzinəsindən yoxa çıxmışdı. R.İbrahimbəyov pulun faizlə banka yatırıldığını desə də, sonradan həmin vəsait müəmmalı şəkildə qeyb olmuşdu. Kinorejissor Oqtay Mirqasımov katiblikdə bu məsələni qaldırdıqdan dərhal sonra R.İbrahimbəyovun hücumlarına məruz qalmış və etiraz əlaməti olaraq İttifaqı tərk etmişdi.

Həmçinin, 2007-ci ildə 28 May küçəsində (Dəmiryol İdarəsi yaxınlığında) yerləşən və İttifaqa məxsus olan "Şərq-Qərb" restoranı sökülmüşdü. Fəhlələrin binanın sökülməsindən aldığı pullar R.İbrahimbəyov tərəfindən oğurlanmışdı. Kinematoqrafçılar İttifaqının sanatoriyasının Şəkidə yerləşən ərazisinin bir hissəsi də R.İbrahimbəyov tərəfindən satılmışdı, katiblikdə isə bu barədə deyilmişdi ki, həmin ərazi Kiş çayındakı sel daşqınları nəticəsində dağılmışdı. Hətta, Kinematoqrafçılar İttifaqının sanatoriyasının Mingəçevirdə yerləşən ərazisinin bir hissəsi də R.İbrahimbəyov tərəfindən satılmış, katiblikdə isə deyilmişdi ki, ərazi Qarabağdan olan məcburi köçkünlərə verilib.

Bütün bunlarla yanaşı, Q.Seyidbəyli küçəsində kinematoqrafçılar üçün tikilən bina R.İbrahimbəyov tərəfindən satılıb. "Şərq-Qərb" festivalı üçün İçərişəhərdə qonaq evi kimi tikilən ev də sonradan R.İbrahimbəyov tərəfindən özəlləşdirilib. R.İbrahimbəyovun üzüm plantasiyalarının yerləşdiyi Şamaxı rayonundakı torpaq sahələri də qanunsuz olaraq özəlləşdirilib. Eləcə də, Kino Evi nəzdində Kinematoqrafçılar İttifaqı üçün 1994-cü ildə ərazi ayrılıb. Bunu uzun müddət ictimaiyyətdən gizlədən R.İbrahimbəyov həmin ərazidə ailə üzvlərinə gizli şəkildə koteclər tikdirib. Hətta, 2002-ci ildə Moskva meriyası ümumrusiya Azərbaycanlıları Konqresinə binanın və Azərbaycan Evinin tkitintisi üçün Tverskoy-Yamskoy küçəsində torpaq sahəsi ayrılması haqqında sərəncam verib. Lakin Rüstəm İbrahimbəyov rəsmi şəkildə məktub yazaraq həmin ərazini satıb. Əldə edilən pullar isə yenə də Rüstəm İbrahimbəyov tərəfindən mənimsənilib.

## Rüstəm İbrahimbəyov saxtakar, eqoist, yalançı, milli dəyərləri heçə sayan, düşmənlə əlbir olan bir xəyanətkardır

Beləliklə də, göstərilən bütün faktlar bir daha Rüstəm İbrahimbəyovun ziyalı deyil, saxtakar, eqoist, yalançı, milli dəyərləri heçə sayan, düşmənlə əlbir olan bir xəyanətkar olduğunu ortaya qoyur. Rüstəm İbrahimbəyov kimi düşmən xislətli birisini xalqa "milləti düşünən əsl ziyalı" kimi təqdim etməyə, onu prezident kürsüsünə yüksəltməyə çalışan "Milli Şura" adlı qurumun, onun başında duran Əli Kərimli, Cəmil Həsənli və digərlərinin də anti-milli və ermənipərəst simasını aydın göstərir. Bu şəxslər buyursunlar, özlərinin "sənət əsərlərinə" diqqət kəsilsinlər. Erməni oyununun mühüm bir parçası qismində çıxış edən İbrahimbəyov artıq özünü gizlətmir, əksinə, açıq-aşkar ermənilərlə işbirliyində olmasını ortaya qoyur. Görəsən, bütün bunlardan sonra kərimlilər və həsənlilər nə deyəcəklər?

Rüstəm İbrahimbəyovun bu xəyanətkar əməli, onun həmsədri olduğu "Milli Şura" başçılarının satqın və düşmən xisləti Azərbaycan cəmiyyətində dərin hiddətə səbəb olub. R.İbrahimbəyov və onun sahibləri bilməlidir ki, öz xalqının dəyərlərinə hörmət qoymayanlara heç kəs hörmət etmir, öz millətini sevməyənləri də heç kəs sevmir. Öz xalqına xəyanət edən, xalqının düşməni ilə dost olan dostluqda da gec-tez xəyanət yolunu tutacaq. Çünki xəyanət artıq onun qanına işləyib. Hətta qənaət belədir ki, ermənilər də ondan hələ ki, bir maşa kimi istifadə edir. Zamanı gələndə istifadə müddəti bitmiş əşya kimi R.İbrahimbəyovu bir kənara tullayacaqlar...

***Bəhruz QULİYEV,***
***"SƏS" qəzetinin Baş redaktoru,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

*P.S: Məncə, bu xəyanətindən sonra Rüstəm İbrahimbəyova Azərbaycan dövləti tərəfindən verilmiş bütün titulları əlindən alınmalıdır.*




# Tələbələr ekoloji təmiz ət məhsullarının istehsalı prosesi ilə tanış olublar



Bakı Qida Sənayesi Kollecinin "Qida texnologiyası" və "Qida ekspertizası" ixtisaslarında təhsil alan tələbələrin "Kral ət məhsulları" istehsalı müəssisəsinə ekskursiyası təşkil olunub. SİA-nın məlumatına görə, tələbələrə məlumat verilib ki, "Hakan Foods" MMC 2001-ci ildən "Kral" markası altında ekoloji təmiz kolbasa, sosiska, servelat, vetçina, mal delikatesi və s. ət məhsulları istehsalına başlayıb. Şirkət 1,2 hektar ərazidə yerləşir və kompleksə ən müasir avadanlıqlarla təhciz edilmiş laboratoriya, ət məhsulları istehsalı sahələri, soyuducu anbarlar və daşıma sistemləri daxildir. Bildirilib ki, "Hakan Foods" MMC təxminən 42 adda kolbasa və sosiska məhsulları istehsalı üçün "Halal Qida" Dövlət Standartı üzrə uyğunluq və gigiyenik sertifikatlarına layiq görülüb. İllik istehsal gücü 2500 tona çatan ət emalı sahəsində müxtəlif çeşidlərdə məhsul istehsal edilir. "Kral" markası altında istehsal olunan ət məhsullarına Azərbaycanın qədim və tarixi diyarlarının və şəhərlərinin adları verilib. "Zəngəzur", "Gümrü", "Dərələyəz", "Vedibasar", "Göyçə" və başqa adlarda istehsal olunan ət məhsulları yüksək keyfiyyəti ilə yanaşı, eyni zamanda, tarixi torpaqlarımıza bağlılığımızı da təlqin edir.

Sonra tələbələr kolbasa və sosiska istehsalı prosesini izlədilər, onları maraqlandıran suallara cavab aldılar və "Kral" ət məhsullarından daddılar.

# "Azərbaycanda kiçik və orta biznes evləri yaradılacaq"

Azərbaycanda kiçik və orta biznes evləri yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bu biznes evləri dövlət orqanları ilə sahibkarlar arasında körpü rolunu oynayacaq. Yeni yaradılan biznes evləri biznes mühitində "ASAN xidmət" modeli kimi olacaq, sahibkarlar və dövlət orqanları üçün "bir pəncərə" sistemi kimi fəaliyyət göstərəcək.

# 7 əcnəbi qanunsuz ov fəaliyyətinə görə cərimələnib



"Cari ilin üç ayı ərzində 7 əcnəbi, ötən il və bu ilin 4 ayı müddətində 300-ə dək yeri ovçu qanunsuz ov fəaliyyətinə görə, hər biri 2000 manat cərimələniblər". SİA-nın xəbərinə görə, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktor müavini Hikmət Əlizadə dünən keçirilən mətbuat konfransında məlumat verib. O bildirib ki, cərimə edilən əcnəbi vətəndaşlar körfəz ölkələrinin vətəndaşlarıdır. Direktor müavini söyləyib ki, Azərbaycanda yerli vətəndaşlarla yanaşı xarici vətəndaşların ovuna qanunvericiliklə icazə verilir: "Azərbaycanın qoşulduğu beynəlxalq Konvensiyalar, öhdəliklər xarici ovçuların ölkəmizdə ov etməsinə icazə verir. Onların ölkəmizdə ov etməsi üçün xüsusi qaydalar var ki, bu qaydaların pozulmasına görə, ovu təşkil edən şirkətlər məsuliyyət daşıyır. Çünki şirkətlər ovçulara qanunvericiliklə bağlı maarifləndirməni təşkil etməlidirlər. Ovçular ov edəcəkləri obyektlər haqqında məlumatlı olmalıdırlar. ETSN bu öhdəlikləri yerinə yetirən şirkətlərlə əməkdaşlıq etməyə hazırdır. Əks halda bu şirkətlərin fəaliyyəti məhdudlaşacaq".

"Azərbaycan Konstitusiyasından irəli gələrək deyə bilərik ki, istər yerli istərsə də xarici ovçular üçün rüsum eynidir. Xarici ovçular daha çoxqaban ovu, çöl quşlarına üstünlük verirlər"-deyə departament direktorunun müavini qeyd edib.

# "Müdrik addımına görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıq"

*Ümumilikdə 634 nəfər əfv olunaraq, ailəsinə və azadlığına qovuşdu*

***Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Respublika Günü münasibəti ilə yüzlərlə məhbusun əfv edilməsi ilə bağlı Sərəncam imzaladı. Ümumilikdə, 634 nəfər əfv olunaraq, ailəsinə, azadlığına qovuşdu. Söhbət etdiyimiz müsahiblərimiz əfv Sərəncamını Prezidentimizin humanist addımı və xeyirxah qərarı kimi qiymətləndirdilər.***

### Millət vəkili Eldəniz Səlimov: "Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev kimi güclü, müdrik, uzaqgörən liderlər humanist və ədalətli olur "



- Bu, çox böyük və çox humanist bir addımdır. Azərbaycan dövləti, onun qurucusu və banisi Ümummilli Lider Heydər Əliyev, Azərbaycan Prezidenti İlham Əliyev daim humanistliyi ilə seçiliblər. Ümumiyyətlə, 1993-cü ildən bu yana humanistlik və ədalətlilik Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsasını, tərkib hissəsini təşkil edib və təşkil etməkdədir. Çünki güclü, özünə inanan, özünə güvənən dövlət ədalətli və humanist olur. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev kimi güclü, müdrik, uzaqgörən liderlər humanist və ədalətli olur. Bu, xüsusiyyətlər heç də hər kəsə, hər bir dövlət rəhbərinə xas olan xüsusiyyətlər deyil. Bu xüsusiyyətlər yalnız və yalnız Dahi Öndər Heydər Əliyev və Prezident İlham Əliyev kimi müdrik və ağıllı dövlət adamlarında olur. Onlar bağışlamağı, səhv yolda olan insanları əfv etməyi, haqq-ədalət yoluna döndərməyi bacaran liderlərdir. Onların humanistliyi, humanist addımlar nəticəsində də yüzlərlə, minlərlə insan bu günə kimi azadlığına, təkrarən ailəsinə qovuşub. Bu gün də daha 634 nəfər əfv olunaraq, ailəsinə və azadlığına qovuşur. Odur ki, bu humanist, bu müdrik addımına görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirir, Ona Azərbaycan dövləti və xalqı naminə yorulmaz fəaliyyətində növbəti uğurlar və növbəti zəfərlər arzulayıram.




### Millət vəkili Azər Badamov: "Prezidentimiz Azərbaycan vətəndaşına böyük dəyər verir"



- Mütəmadi olaraq, Prezident İlham Əliyev ölkəmiz üçün əlamətdar günlər ərəfəsində əfv sərəncamları imzalayır və bununla da, böyük humanist addımlar atır. Prezidentimizin yüzlərlə məhbusun əfv edilməsi ilə bağlı Sərəncamı xalqımız tərəfindən də çox yüksək dəyərləndirilir. Bu, bir daha göstərir ki, Prezidentimiz Azərbaycan vətəndaşına böyük dəyər verir. Müəyyən miqdarda cinayət törətmiş, cəzasını çəkmiş insanlar üçün cəmiyyətə yenidən inteqrasiya olunmaq imkanı verir. Yəni insanlara özlərini cəmiyyətdə yenidən təsdiq etmək imkanı verir. Bu, Prezidentimiz tərəfindən atılmış böyük bir humanist addımdır. Bu yolla əfv olunmuş məhbuslar yenidən özlərini azad cəmiyyətdə doğrultmaq imkanı əldə etmiş olurlar. Yəni məhbuslara cinayət məsuliyyətinə cəlb olunduqları dövrdə həbslə azadlıq arasındakı fərqi müəyyənləşdirmək imkanı verilmiş olur. O cümlədən bunu, həbsdə olan və əfv olunan insanların yenidən tərbiyə olunması üçün yaradılmış bir imkan kimi də ifadə etmək olar. Çox mütərəqqi bir addımdır və yüksək səviyyədə dəyərləndirirəm.

### Əfv Komissiyasının üzvü, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev: "Humanizm bu gün Azərbaycan dövlətinin apardığı siyasətin prioritetlərindəndir"



- Prezident İlham Əliyevin imzaladığı sərəncamlar humanizm prinsiplərinə əsaslanır. Mərhəmət və humanizm bu gün Azərbaycan dövlətinin apardığı siyasətin prioritetlərindəndir. Təsadüfi deyil ki, ötən ilin 10 fevral Sərəncamı da cəzanın humanistləşdirilməsi ilə bağlı olan mühüm əhəmiyyət daşıyırdı. Nəticədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı layihə hazırlandı və Milli Məclisdə qəbul edildi. Cinayət Məcəlləsinin üçdə birində dəyişikliklər baş verdi. Bu dəyişikliklər nəticəsində də bir çox əməllər kriminallaşdırıldı. Eyni zamanda, cəza növü müəyyənləşdirildi və həmçinin, sanksiyalar azaldıldı. Bu məhkəmə-hüquq islahatlarının, davamlı olaraq, aparılması istiqamətində bir yol xəritəsi idi. Prezident İlham Əliyevin 2003-cü ildən bu günə qədər imzaladığı 30-dan artıq əfv Sərəncamında 4 mindən artıq şəxs cəzadan azad edilmişdir. Bütün bunlar Prezidentin, məhz humanizm və mərhəmət prinsiplərinə əsaslandığını göstərən silsilə nümunələridir. Ötən il də 425 nəfər Cənab Prezidentin əfv Sərəncamı nəticəsində azadlığa çıxmışdır. Bu ildə 634 nəfər cəzadan azad edilib. Bu əfv sərəncamları tarixində ən genişmiqyaslı əfv Sərəncamıdır. Bununla da, minlərlə Azərbaycan ailəsi sevindi. Prezident mərhəmət nümayiş etdirməklə, 634 nəfər məhbus yenidən azadlığa çıxmaq şansı qazandı. Ümid edirəm ki, məhz bu əfv Sərəncamı nəticəsində azadlığa çıxmış şəxslər öz həyatlarını yenidən quraraq, ailəsi və yaxınları ilə bərabər olmaqla, bu ölkənin çiçəklənməsinə töhfə verəcəklər. Əslində, bu azadlığın fəlsəfəsi də daimi inkişafa töhfə verməkdir. Özünü daha da kamilləşdirməkdir. Cənab Prezidentin onlara verdiyi bu şansı dəyərləndirməlidirlər. Bir sözlə, yaxşı işlər görməklə bunu doğrultmalıdırlar.

***GÜLYANƏ AĞAKƏRİMOVA***

# Mədəniyyət Nazirliyi: “Rüstəm İbrahimbəyovun “Qafqaz üçlüyü” filmi əsl simasıdır”

**“Rüstəm İbrahimbəyovun ssenarisi əsasında lentə alınmış “Qafqaz üçlüyü” filmi son illər ermənipərəst dairələrin Azərbaycan dövlətinə və xalqına qarşı apardığı məqsədli iftira, qarayaxma kampaniyasının tərkib hissəsidir və ikrah doğuran bir fakt kimi bütün cəmiyyətimiz tərəfindən qəti şəkildə pislənilir.”**

SİA-nın məlumatına görə, bu fikir Mədəniyyət Nazirliyinin açıqlamasında yer alıb. Açıqlamada bildirilir ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasəti başlayan ilk gündən düşmən ölkənin, dünyadakı erməni lobbisinin bütün resursları Azərbaycan xalqını qəddar, davakar, ermənilərə qənim kəsilmiş bir xalq olaraq tanıtmağa və bununla Dağlıq Qarabağdakı separatçılığa əsas qazandırmağa yönəldilib. Təəssüf ki, bu işdə bəzi sapı özümüzdən olanlar da düşmənin məkrinə alət olaraq doğulduğu torpağa, mənsub olduğu xalqa qarşı çirkin fəaliyyət göstərirlər.

Rüstəm İbrahimbəyovun bu istiqamətdə fəaliyyəti artıq neçə illərdir ki, davam edir və o, çoxdan tükənmiş



“yaradıcılıq gücü”nü erməni ünsürlərlə əlbir olaraq Azərbaycan xalqını aşağılamaq, onu mədəniyyətsiz, milli kökləri olmayan xalq kimi göstərmək yolunda sərf edir. “Qafqaz üçlüyü” filmi bu eybəcər yaradıcılığın daha bir nümunəsidir. İndiyədək müxtəlif müsahibələrində ermənilərin ünvanına səsləndirdiyi rəğbət dolu fikirlər, Azərbaycan torpaqlarının işğalında ermənilərin deyil, hansısa mücərrəd qüvvələrin günahkar olduğunu dilə gətirməsi onun bu mövqeyini cəmiyyətə yetərincə nümayiş etdirib.

“Qafqaz üçlüyü” filmində Azərbaycan xalqını riyakar, mədəniyyətsiz kimi təqdim etmək zaman-zaman erməni diaspor təşkilatlarının, erməni millətçilərinin apardıqları anti-Azərbaycan təbliğatın davamıdır. Bu filmin ortaya çıxması Rüstəm İbrahimbəyovun əsl simasını bir daha göstərir. Artıq neçə illərdir bədii dəyərə malik bir ekran əsəri, kino layihəsi ortaya çıxarmağa müvəffəq olmayan Rüstəm İbrahimbəyov yalnız belə siyasi sifarişli, məqsədli “film”-parodiyalarla gündəmdə qalmağa çalışır. Başdan-ayağa yalan, iftira, eyni zamanda, siyasi konyunktura əsasında qurulan “Qafqaz üçlüyü” filminin onun yaradıcılıq bioqrafiyasında qara ləkə olaraq qalacağı şübhə doğurmur və Rüstəm İbrahimbəyov bununla Azərbaycan xalqının əbədi nifrətini qazanıb. Mədəniyyət Nazirliyi Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Azərbaycan xalqını aşağılayan, onun milli hisslərini təhqir edən, cılız siyasi məqsədlər güdən belə bir eybəcər “film”in çəkilməsini qəti şəkildə pisləyir, yaradıcılığının son illərini Vətənə, içərisindən çıxdığı xalqa dönük insan olaraq yaşayan kinodramaturqun bu ikrah doğuran əməllərindən dərin təəssüf hissi keçirdiyini bəyan edir. Rüstəm İbrahimbəyov unutmamalıdır ki, öz xalqını aşağılamaqla hələ heç kəsə ucalmaq, adını tarixə yazmaq müyəssər olmayıb.

## ETSN-in mətbuat katibi : “Qanunvericiliyi pozanlara qarşı sərt tədbirlər görüləcək”

“Ekologiya və Təbii Sərvətlər Nazirliyi ekoloji qanunvericiliyi pozanlara qarşı sərt tədbirlər görəcək”. SİA-nın məlumatına görə, bunu ETSN-nin mətbuat katibi İradə İbrahimova deyib. İ.İbrahimova bildirib ki, ov mövsümünün açıq elan edilməsi o demək deyil ki, kim harada gəldi ov edə bilər: “Hər kəs bilməlidir ki, qoruq ərazilərində ov etmək qadağandır. Yəni ovçuluq sahəsində kimlərsə qanun pozuntularına yol verəcəksə, onlara qarşı qanun çərçivəsində ciddi və sərt mövqe nümayiş olunacaq”.

## “Azərbaycanda orta hesabla 20-25 min ovçu var”

“Azərbaycanda orta hesabla 20-25 min ovçu var”. SİA-nın xəbərinə görə, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktor müavini Hikmət Əlizadə dünən keçirilən mətbuat konfransında məlumat verib. O bildirib ki, Azərbaycanda ovçuluq bileti Nazirlər Kabinetinin qərarına əsasən verilir: “Ovçuluq bileti təkcə Ekologiya və Təbii Sərvətlər Nazirliyi deyil, Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi ovçuluq İttifaqı tərəfindən imtahan vasitəsilə verilir. Belə olan halda, hər iki qurum tərəfindən bilet verilən şəxslər də ovçu sayılır. Qanunvericilik dəyişməzdən əvvəl bəzi ovçular” Azərovçu” İctimai Birliyi tərəfindən biletlər alıb. Lakin o biletlər hazırda qüvvədə deyillər”. Onun sözlərinə görə, Azərbaycanda ovçu bileti iki il müddətində yararlıdır: “Bu müddət bitdikdən sonra ovçular biletlərini yeniliyə bilirlər”. H.Əlizadə qeyd edib ki, ovçuluq biletini əldə etmək üçün xüsusi test sualları hazırlanır: “Suallar ov silahından istifadə etmək, fauna, qanunvericilik və digər məsələləri əhatə edir”.

Coca-Cola®

Azərbaycan xalqını
28 MAY - RESPUBLİKA GÜNÜ
münasibəti ilə təbrik edirik.
Xalqımıza əbədi müstəqillik,
sülh və əmin-amanlıq,
bol-bol sevincli günlər
arzulayırıq!

# Dövlət başçısının daha bir humanist addımı ailələrə sevinc bəxş etdi






Azərbaycan müstəqillik yoluna qədəm qoyduqdan sonra ölkəmizdə insanlıq və humanizm prinsiplərinə xidmət edən xeyirxah əməllər dövlətin insan amilinə ayırdığı diqqətin daha bir təzahürüdür. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan humanizm siyasətinin mahiyyətində humanizm və ədalət prinsiplərinə əsaslanan, insan hüquq və azadlıqlarına hörmət və ehtiram kimi amillər dayanır. Bu humanizm siyasətini özündə əks etdirən əfv və amnistiya təsisatları yaradılıb. Ümumilikdə, 1995-2003-cü illərdə yeddi amnistiya aktı qəbul edilib və 32 əfv Sərəncamı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox məhbusa şamil edilib. Məhz Ulu Öndərin humanizminin nəticəsi olaraq, ölkəmizdə ölüm hökmü də aradan qaldırılıb və bununla da, Azərbaycan Şərqdə bu cəzanı ləğv edən ilk ölkə kimi tarixə düşüb.

Ulu Öndər Heydər Əliyevin bu sahədə də siyasətini uğurla davam etdirən və dəfələrlə əfv sərəncamları imzalayan Prezident İlham Əliyev humanistliyini nümayiş etdirir. Ölkə başçısının məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında imzaladığı sərəncamları, bir daha sübut edir ki, Azərbaycan Respublikasının hər bir vətəndaşı, eləcə də, azadlıqdan məhrum edilmiş insanlar ölkə başçısının diqqət mərkəzindədir. Mayın 24-də Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında" Sərəncamı növbəti humanist addımıdır. Cinayət törədənlərin əfv olunması istər humanizm, istər əxlaqi, istərsə də cəmiyyətdaxili harmoniyanın qorunması baxımından böyük önəm daşıyan addımdır. Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 607 nəfər, əsasən, cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər, həmçinin, azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 9 nəfər cəzadan azad olunub. Eləcə də, islah işləri cəzasına məhkum edilmiş 6 nəfər cəzanın çəkilməmiş hissəsindən, 11 nəfər isə cərimə cəzasından azad olunub. Əfv olunan şəxslər arasında xarici ölkələrin 39 vətəndaşı da var.

"Səs" qəzetinə açıqlamasında millət vəkili Musa Quliyev bildirib ki, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin imzaladığı əfv Sərəncamı bütün Azərbaycan ictimaiyyətinin ürəyincə olan bir Sərəncamdır. Onun sözlərinə görə, bu Sərəncam Azərbaycana barış, humanizm, vətəndaş həmrəyliyi gətirən bir qərardır: "Bu əfv Sərəncamı ilə Cənab Prezident vaxtilə müəyyən cinayətlər törətmiş və öz səhvlərini başa düşmüş insanlara qarşı böyük humanistlik göstərib. Bundan sonra o insanlar həyatda düz, namuslu yol tutacaqlar və heç bir qeyri-qanuni əmələ yol verməyəcəklər. Bu Sərəncam bir daha Azərbaycan xalqının öz dövlətinə inamını artırır, öz Prezidentinə güvənini artırır. Eyni zamanda, Prezidentin öz vətəndaşlarına qayğıkeş münasibətini bir daha ortaya qoyur".

Əlbəttə ki, məhkumun cəzadan azad edilməsi həmin şəxsə etimadın göstərilməsinin əlaməti kimi mühüm psixoloji təsirə malikdir. Çünki cinayət törədərək, məhkum olunan, eyni zamanda, səhvini anlayaraq peşmançılıq keçirən insan yenidən dövlətin və cəmiyyətin etibarını qazanmaq zərurəti hiss edir. Dövlətin məhkumlara etimad göstərərək, onları əfv etməsi həmin insanların özlərinə olan inamını artırır, gələcəkdə öz həyatlarını qanunlara hörmət çərçivəsində davam etdirərək, ölkənin layiqli vətəndaşı olmağa həvəsləndirir. Bu, həm də onların cəmiyyət tərəfindən daha tez qəbul olunması və özlərinə layiqli yer tapmalarına da şərait yaradır.

Cəzadan azad olunan şəxslər cəmiyyətə qovuşaraq müstəqil dövlətimizin inkişafı yolunda fəaliyyət göstərəcəklər. Millət vəkili M.Quliyev bildirib ki, bu əfv Sərəncamından yüzlərlə ailə və minlərlə insan sevinəcəkdir: "Bu da həmin insanları bir daha Azərbaycan dövlətinin ətrafında birləşməyə, Cənab İlham Əliyevə sədaqətlə xidmət etməyə sövq edəcəkdir".

Təbii ki, 28 May - Respublika Günü münasibətilə Cümhuriyyətin 100 illiyində belə bir Sərəncamın imzalanması yüzlərlə insanın məhkumluqdan azad edilməsini nəzərdə tutan Amnistiya Aktı yenidən cəmiyyətdə xüsusi əhval-ruhiyyə yaradan hadisəyə çevriləcək.

**NƏZAKƏT**




AtaHolding
28 May
Respublika
Gününüz
mübarək!
100 il
Azərbaycan Xalq Cümhuriyyəti
ATAHOLDİNQ ŞİRKƏTLƏR QRUPU
AZƏRBAYCAN XALQINI 28 MAY RESPUBLİKA
GÜNÜ MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİR!

AtaSığorta

**ATASIĞORTA ŞİRKƏTİ AZƏRBAYCAN XALQINI 28 MAY RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİR!**

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 100
1918 2018



***Son bir əsrdə millətin nəsibi olan ilk milli dövlət - "Azərbaycan Cümhuriyyəti o zaman bütün Şərqdə (və Avropada) ən demokratik parlaman modelinə malik idi və sağlam bir milliyyət fikri və türklük şüuru üzərində qurulmuşdu... Eyni zamanda, Azərbaycan çağdaş bir cəmiyyət qurmağa, Avropa zehniyyəti ilə çalışmağa əzm etmişdir. Bayrağının üç rəngi (mavi, qırmızı, yaşıl) bu ümdənin timsalıdır)" (Üzeyir Hacıbəyli).***

# Azərbaycan Xalq Cümhuriyyətinin milli birlik uğrunda mübarizəsi və əbədi irsi AXC Qərb və Şərq dəyərlərini, milliliyi və ümumbəşəriliyi özündə birləşdirən milli birlik uğrunda mübarizə aparan bir dövlət idi

AMEA-nın müxbir üzvü mərhum Yaşar Qarayev yazırdı: "Milli birlik və istiqlal hakimiyyəti "Xalq respublikası" və sosial-demokratiya istiqamətində ümumbəşəri tərəqqinin həm Qərb, həm də Rusiya və Şərq meyillərini öz məzmununda birləşdirdi. Milli dövlət qurumunu filial, struktura obyekti, avtonomiya səviyyəsində yox, tam müstəqil, klassik respublika səviyyəsində dirçəltmək cəhdinə Şərqdə real, konkret tarixi timsal və nümunə idi".

Bir cəhət də çox mənalı və ibrətlidir: Azərbaycanda Cümhuriyyətin tülusu da, qürubu da cəbrsiz və zorsuz, qansız və qadasız baş verib. Onun mənəvi və hüquqi təsisində təməl daşı - hücum və ordu, silah və sürgün yox... milli dövlət təfəkkürü, zəka və müdriklik olub. Beynəlmiləlçi parlamanı, hüquqi dövlət təsisatı və əxlaq kodeksi onun bütün sonrakı qısa, çətin, lakin tarixi fəaliyyətinin mahiyyətini də aşılayıb: "Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşların bərabər bir hüquqda yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ qorunurdu, erkək-qadın, müsəlman-xristian, türk-türk olmayan, cins və milliyyət fərqi gözləmədən, zəngin-fəqir, müdir-işçi, torpaq sahibi - günəmuzdçu, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsif, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkət idarəsində iştirak edir, qanun yapan quruluşlara girmək haqqına dəxi sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünmürdü. Bunun kimi ona nə yoxsulluğu üçün sayğı edilir, nə zənginliyi üçün aşağılanırdı... Burada misli Avropada tətbiq olunmayan həqiqi bir xalq Cümhuriyyəti qurulmuşdu".

Y.Qarayevin təbirincə desək: "Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanda Cümhuriyyətdən əvvəlki yetmiş illik (1850-1918) milli-mənəvi inkişafın əsəri və övladı olub. Eyni miqyasda və siqlətdə digər əsərdən - Cümhuriyyətin öz əsəri və övladı olan milli İntibahdan isə, geniş mənada, Cümhuriyyətdən sonrakı yetmiş ilin (1920-1990) sənət və mədəniyyətinin timsalında danışmaq olar. Sovet federasiyası daxilində də Azərbaycanın milli istiqlalı, ərazi bütövlüyü və respublika statusu üçün potensial tarixi əsası və inzibati modeli Azərbaycan Cümhuriyyəti verdiyi kimi, eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunması, təzahürü və yüksəlişi üçün fəlsəfi-estetik təməli, nəzəri əsası da elə həmin AXC-nin milli tərəqqi təlimi və konsepsiyası verdi. Azərbaycanda sovet dövründə də, istisnasız olaraq, bütün bədii formalarda - poeziyada, rəssamlıqda, musiqidə, teatrda... ən böyük uğura çevrilən şedevrlər, məhz bu yaddaş kodundan çıxan, onunla təzad təşkil etməyən əsərlər oldular".

Azərbaycanın ən yaxşı alimləri, elm və bilik adamları sonralar həm millətin, həm də onun ədəbiyyatının tarixini bu yüksək nöqtədə duraraq yaratdılar (şübhəsiz, bu sözlər həmin yetmiş ildəki rəsmi-direktiv tarixçiliyə, boz yekrəng, "elmi" -"bədii" axına, qrafoman-doqmat məhsuluna, konyuktur makulaturaya aid deyil). Azərbaycanda son 150 ildə ədəbi nəsil və bədii ənənə arasında milli əlaqə, varislik estafeti xəlvətdə, alt qatda heç vaxt qırılmamış, daxildəki ana damarda, arteriyada dövriyyə fasiləsiz davam etmişdir. Və bunun da tamamilə məntiqi nəticəsi olaraq, suverenlikdən sonrakı dövr -1990-2000-ci illərin ədəbi prosesi də həmin dövriyyəyə əvvəlki təbiilik və qanunauyğunluqla qoşula bilmişdir (dəyişən siyasi ukladlarla birlikdə, hər dəfə sənətə və sənətkara da münasibəti dəyişən, mədəniyyətin mərhələlərini qarşı-qarşıya qoyan vulqar-sinfi konyukturanın, siyasi təsnifatın bu qanunauyğunluqla heç bir əlaqəsi yoxdur).

Lakin bütün bunlarla birlikdə, o da həqiqətdir ki, AXC dövrü ilə bağlı ədəbi irs, şübhəsiz, yalnız AXC-dən sonrakı ədəbiyyatın böyük nümunələri deyil. Həmin ədəbiyyatı ilk dəfə araşdıranlar və dəyərləndirənlər də elə Cümhuriyyətə və onun mədəniyyətini yaradanların özləridir.

Hələ bir böyük şedevr ayrılıqda yaranmasa da, Cümhuriyyəti yaradan və Cümhuriyyətin ideallarını həmin dövrdə də incələyib tərənnüm edən zəngin bir poeziya, nəsr, dramaturgiya və tənqid məhsulu, fəal ədəbi və sosial-mədəni hərəkat AXC illərində mövcud olmuşdur.

Azərbaycan ərazisi bərpa olunmuş, müsəlləh milli ordu yaradılmış, Azərbaycan dili dövlət dili elan edilmiş və belə etibarlı zəmində hökumətin iyirmi üç ayda mümkün olan ən böyük tədbirləri də demokratiya, elm və milli mədəniyyət sahəsində olmuşdur: BAKI DÖVLƏT UNİVERSİTETİ (1919) AZƏRBAYCAN DÖVLƏT TEATRI (1919), "TEATR XADİMLƏRİ CƏMİYYƏTİ", "MÜSƏLMAN MÜHƏRRİR VƏ ƏDİBLƏR CƏMİYYƏTİ", "YAŞIL QƏLƏM" ədəbi birliyi açılmış, milli simvolika - gerb, bayraq və himn müəyyən edilmişdir.

Rəsmi statistikaya görə, Azərbaycanda hələ 1919-cu ildə artıq 700 məktəb açılmış və bu məktəblərdə 48780 şagird təhsil almışdır.

Dövlət Teatrı İ.Aşurbəylinin Azərbaycan istiqlalı mövzusunda yazdığı "AZƏRBAYCAN" dramı ilə açılmış, A.M.Şərifzadə, C.Zeynalov, H.Ərəblinski, H.Sarabski, S.Ruhulla, M.Əliyev, M.Kazımovski kimi şöhrətli aktyorların ifasında, həmçinin, "HACI QARA", "ÖLÜLƏR", "BƏXTSİZ CAVAN", "ARŞIN MAL ALAN", "ƏDİRNƏ FƏTHİ" tamaşaları səhnəyə qoyulmuşdur. Bədii repertuar, eyni zamanda, "Zorən Təbib" (Molyer), "Qaçaqlar" (Şiller), "Əlmənsur" (Heyne), "Müfəttiş" (Qoqol), həmçinin, "Ənuşirəvani-adil" (Xalid ibn-Valid), "SƏD İBN VƏQQAS", "YEZİD İBN MÜAVİYƏ", "TÜRKİYƏ OĞULLARI", "KÖHNƏ TÜRKİYƏ", "ƏBÜLÜLA" pyeslərini əhatə edirdi.

Y.Qarayev yazır: "CÜMHURİYYƏT DÖVRÜ" (1918-1920) - XX əsrin əvvəlinin iki inqilab (1905-1907-ci və 1917-ci illərin rus inqilabları) dövrü ilə sonrakı yetmiş il arasında ara mərhələni təşkil edir.

Hələ islama qədər neçə yüz il tarixi olan, islamla özünü yenidən dərk edən və XIX əsrin Qərb-Şərq məcrasında təzə mərhələyə yüksələn Azərbaycan ədəbiyyatında üç əvvəlki ədəbi dövrdən sonra onların hər üçünü özündə cəmləyən yekun dövrü (XX yüzil) gəlir və özünün zirvə məqamına müstəqil Azərbaycan dövləti illərində çatır -1918-20-ci illərdə. Məhz bu dəfə "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbinin, tənqidi realizmin və iyirminci əsr romantizminin bədii-fəlsəfi bünövrəsi zəminində ədəbiyyat öz mənəvi-fəlsəfi miqyasını, əhatə hüdudlarını və çərçivəsini artıq coğrafi yox... tarixi (!) məkanda dəyişir: vəhdətə və bütövlüyə qitələrlə qitələr arasında yox, daha çox epoxalarla epoxalar, köklərlə zirvələr, mənşə ilə, əcdadla, etnosla müasir nəsil arasında nail olmağa çalışır. Yenidən (bu dəfə artıq yeni məzmunda və səviyyədə) daha çox Şərqlə, türklük və islam dünyası ilə bağlılıqda özünü tanımaq, ifadə və təsdiq etmək yolu ilə gedir.

Təsadüfi deyil ki, təxminən eyni vaxtda Cənubi Azərbaycanda da milli istiqlala qarşı qəsd baş verdi: Səttarxandan, Bağır xandan sonra Şeyx Məhəmməd Xiyabaninin demokratik hökuməti məhv edildi.

Azərbaycan Cümhuriyyəti, şübhəsiz, 1917-1920-ci illərdə Avropa, Rusiya və Qafqaz miqyasında özünü göstərən geosiyasi maraqların obyektiv olaraq şərtləndirdiyi tarixi hadisə idi. Lakin o, daha əvvəl Azərbaycanda yaxın iki əsrin və xüsusən, AXC-yə qədərki son üç on ilin sosial-ictimai və ədəbi-mədəni hərəkatı ilə hazırlanmış milli-məfkurəvi, mənəvi-ideoloji bir fenomen idi. Odur ki, ondan sonrakı çağdaş və gələcək tarix yalnız onunla bütövləşən məcrada, kontekstdə incələnə bilərdi".

Ədəbiyyat tarixi, folklor topluları yaradılması, ədəbi prosesin təşkili, milli tarixə və ənənəyə dair müntəzəm, çeşidli nəşrlərin cari və perspektiv planlarının icrasını müəyyənləşdirərək, bu cəmiyyət qarşısında duran vəzifələr proqramı kimi müəyyən edilmişdi.

Müəllif qeyd edirdi ki, bədii prosesi tənzim edənlər və yaradanlar - başda M.Ə.Rəsulzadə, ideoloq Mirzəbala, parlamentin sədr müavini H.Ağayev, parlamentin sədri Ə.M.Topçubaşov, S.Məmmədzadə, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, habelə, C.Məmmədquluzadə, M.Hadi, H.Cavid, A.Şaiq, Ə.Müznib, S.Mümtaz və b. idi. Xüsusən, "CÜMHURİYYƏT ŞAİRİ" Ə.Cavad, Əliyusif Rai, Umugülsüm xanım (M.Ə.Rəsulzadənin əmisi qızı, S.Hüseynin həyat yoldaşı), Əmin Abid (Gültəkin), Cabbarlı, Davud, Əli Şövqi kimi gənclərin onlarla ehtiraslı şeiri elliklə yayılır və oxunur, marşa, himnə və nəğməyə çevrilirdilər. Nəzirə, qəzəl, qəsidə, mərsiyə, mədhiyyə ənənəsini isə daha çox Ə.Cənnəti, İ.Tahir, A.Müniri kimi yaşlı şairlər davam etdirirdilər.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Maşında kondisioner: komfort, yoxsa təhlükə?



İsti havada maşında kondisionerin olması komfortun əsas şərtidir. Lakin maşında olan kondisionerdən düzgün istifadə etmək lazımdır ki, bu xəstəliyə səbəb olmasın. Həkimlər qeyd edirlər ki, yayda məhz maşında kondisionerlərin olmasına görə angina, faringit və hətta bronxit və pnevmoniyanın halları artır.

Bunun qarşısını almaq üçün ilk növbədə ətraf mühitlə maşının salonunda olan hava temperaturunun fərqi 10 C-dən çox olmamalıdır. İnsan maşından düşəndə və yenidən maşına minəndə temperatur fərqi onun sağlamlığına mənfi təsir edir, immun sisteminin zəifləməsinə gətirib çıxardır. Bu gün ərzində dəfələrlə təkrarlanırsa respirator xəstəliklərinin riski də artır.

Soyuq hava axınını üz və ayaqlara istiqamətləndirməyin, bu da xəstəliyin riskini artırır.

Bundan əlavə maşında olan kondisionerin filtrləri vaxtı-vaxtında təmizlənməlidir. Bu filtrlərdə çoxlu mikroblar yığılır və sonra hava axını ilə insanın nəfəs yollarına düşür.

Maşında kondisionerin olmasının komfortdan əlavə digər faydası da var. Araşdırmalar göstərir ki, maşında kondisionerin olmaması isti havada qəzaların riskini xeyli artırır. Məsələ burasındadır ki, çox isti hava insanın mərkəzi sinir sisteminə mənfi təsir edir - diqqət azalır, insan çətin vəziyyətdə daha gec reaksiya verir ki, bu da nəticədə qəzaların artmasına səbəb olur.

Alman alimlərinin araşdırmalarına görə, maşın salonunda temperaturun 32 C qədər yüksəlməsi qəzaların riskini 15%, 37 C qədər yüksəlməsi isə 35% qədər artırır.

## Vitaminlər...



Artıq uzun zamandır ki, bütün dünya üzrə insanlarda vitamin kompleksləri, mineral əlavələr və ayrı ayrılıqda vitaminlərin qəbulu bir vərdişə çevrilmişdir.

Belə profilaktik tədbirlər, çoxlarının fikrinə görə onkoloji xəstəliklər,infarkt, insult kimi xəstəliklərdən qoruyub, ümumiyyətlə sağlamlığın bərkidilməsi ni təmin edir. Yalnız son araşdırmaların nəticələrinə görə vitamin və minerallar xərçəng və infarktdan qorumur.

Araşdırma üzərində işləyən Xopkins Edqar Miller bildiri ki, vitamin və qida əlavələrinin gələcəkdə sizə xeyirli olmaması ilə bərabər, bu növ profilaktik tədbirlər sizi ürək və damarlarda yaranan problemlərdən qoruya bilməz. Mütəxəssislər belə nəticəyə 500000 insanın iştirakı ilə keçirilən 27 müxtəlif araşdırma əsasında gəlmişlər. Belə maştablı araşdırmalar əsasında mütəxəssislər kifayər qədər sərt adı olan məruzə hazırlamışlar: " Yetər: Bəsdir artıq vitamin və mineral əlavələrə pul xərcləməyiniz"

Həmçinin mütəxəssislər bəzi hallarda hətta vitamin və mineral komplekslərin insan sağlamlığına zərərli olduğunu da iddia edirlər. Daha öncə Kalifornia universitetinin mütəxəsisləri orqanizmdə D vitaminin çatışmamazlığı depressiyanın inkişafına gətirdiyini, indi isə E və C vitaminlərinin normadan artıq qəbulu həyat davamiyyətinin qısalmasına səbəb olduğunu deyirlər.

Təəssüflər olsun ki, insan orqanizmi vitamin C - nin istehsal və əldə olunmasını özü təmin edə bilmir. Orqanizmin qoruyucu potensialının gücləndirilməsi məqsədi ilə insanlar bu vitamini həb formasında qəbul edir. Mütəxəssislər bu vitamin tərkibli həbləri araşdıraraq belə nəticəyə gəliblər ki, 1 həb-in tərkibində gündəlik vitamin normasından qat -qat yüksək doza vardır. Nəzərinizə çatdırırıq ki, insana gündəlik 40 ml/qr C vitamini , hüceyrə quruluşuna kömək edən A və E vitaminləri isə 3-4 ml/qr dozanı təşkil edir.

Orqanizmə normadan artıq dozanın necə təsir edilməsini yoxlamaq üçün mütəxəssislər gəmiricilər üzərində tədqiqat apariblar. İki aylıq siçanlara gündəlik bu vitamin komplekslərini verimişlər. Sınaqlardan belə nəticəyə gəlinmişdir ki, təcrübədə iştirak edən siçanların həyat davamiyyəti iştirak etməyənlərə nisbətdə aşağı düşmüşdür. Bundan belə bəlli olub ki, həblərdə olan vitaminlərdə insan həyatı üçün təhlükəli dozada xeyirli maddələr var. Mütəxəsislər orqanizminizi vitaminlə təmin etmənin ən optimal variantını balanslaşdırılmış sağlam qıdada görürlər. Məsələn E vitaminini yağ, qoz, yumurta, göyərti, süd, ət və ciyər kimi qida məhsullarında, C vitaminin isə bir çox meyvə və tərəvəzlərdə, xüsusən də sitrus meyvələrində əldə edə bilərsiniz. Sağlamlığınızın qeydinə qalın!

## "Avro-2020": Bakıda keçiriləcək oyunların vaxtı açıqlanıb




***UEFA 2020-ci ildə keçiriləcək Avropa çempionatının oyunlarının vaxtlarını açıqlayıb. Bakı Olimpiya Stadionunda "Avro-2020"nin 4 oyunu təşkil olunacaq. Bunlardan 3-ü qrup mərhələsinin, 1-i isə dörddəbir final mərhələsinin oyunlarıdır.***

AZƏRTAC xəbər verir ki, UEFA-nın elan etdiyi təqvimə əsasən, Bakıda keçiriləcək "A" qrupunun 3 oyunu, müvafiq olaraq, iyunun 13-də, 17-də və 21-də olacaq. Dörddəbir final mərhələsinin Bakı Olimpiya Stadionundakı qarşılaşması isə iyulun 4-də keçiriləcək.

## "Mançester Yunayted" "Şaxtyor" ilə transfer barəsində razılığa gəlib



Ukraynanın "Şaxtyor" klubunun və Braziliya millisinin yarımmüdafiəçisi Fred "Mançester Yunayted" klubu ilə razılığa gəlib. AZƏRTAC xəbər veriblər ki, hər iki klubun rəhbərliyi arasında görüş keçirilib. Donetsk təmsilçisi braziliyalını 50 milyon avroya dəyərləndirib və İngiltərə klubu şərtlərlə razılaşıb. Beləliklə, Fred gələn mövsüm "Mançester Yunayted" klubunun şərəfini qoruyacaq.

Futbolçu Ukrayna Premyer Liqasının son mövsümündə 26 oyunda üç qol vurub, beş məhsuldar ötürmə verib.

## Voleybol millimiz Bolqarıstan yığmasının qonağı olacaq



Mayın 26-da qadın voleybolçular arasında Qızıl Avropa Liqasında III turun qarşılaşmaları start götürəcək. İlk iki matçda qalib gələn Azərbaycan millisi üçüncü cəhdində Bolqarıstan yığması ilə üz-üzə gələcək. Mayın 26-da Sofiyada Xristo Botev Sarayında təşkil olunacaq görüş Bakı vaxtı ilə saat 18:00-da başlayacaq. Oyunu Aleksandros Milonakis (Yunanıstan) və Çavdar Marev (Bolqarıstan) idarə edəcəklər. Millimizin yer aldığı qrupun digər görüşündə isə Portuqaliya millisi Ukrayna yığmasını qəbul edəcək. Bu oyun mayın 27-nə təsadüf edəcək.

## Arda Turan klubu tərəfindən cəzalandırılıb



Türkiyə Superliqasının 32-ci turunda "Sivasspor"la oyunda hakimə qarşı intizamsız hərəkət edən "Başakşəhər"in futbolçusu Arda Turan klubu tərəfindən də cəzalandırılıb. Qol.az-ın İstanbul təmsilçisinin rəsmi saytına istinadən yaydığı xəbərə görə, 31 yaşlı futbolçu 250 min avro cərimə olunub. Həmin oyunda qırmızı vərəqə alan digər futbolçu Marsio Mossoro isə 50 min avro cərimələnib. Qeyd edək ki, A.Turan Türkiyə Futbol Federasiyası tərəfindən 16 oyunluq cəzalandırılsa da, daha sonra onun cəzası 10 oyuna endirilib.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**